

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Mərkəzi Aparatında ATƏT DTİHB Seçki Müşahidə Missiyasının əsas heyətinin üzvləri ilə görüş keçirilib



3


SƏS

№ 143 (7068)

10 avqust 2024-cü il.
Qiymәti 60 qәpik


# Azərbaycan Mərkəzi Asiya ölkələri ilə uğurla əməkdaşlıq edir



2

# Çoxüzlü Ermənistan



4

## Vətəndaşın ən yaxın və sadiq "DOST"u




6

## Tezbazar isitmə, yoxsa tezbazar öldürmə?



10

## Gənclik: kaş ki bir də dönərdim o çağlara




13

## Dağıdıcı müxalifətin "boykot" taktikası iflasa uğradı



14

## "Fast food" haqqında bilməniz lazım olan VACİB MƏQAMLAR



16






# Azərbaycan Mərkəzi Asiya ölkələri ilə uğurla əməkdaşlıq edir

*Prezident İlham Əliyev Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə çıxış edib*

Avqustun 9-da Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak edib. Azərbaycan





Prezidenti tədbirdə çıxış edib. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşılayıb. Dövlətimizin başçısı tədbirdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, Azərbaycanın bu görüşlərə dəvət olunması ölkələrimiz arasında mövcud dostluq, qardaşlıq münasibətlərindən və inkişaf etməkdə olan əməkdaşlıqdan xəbər verir:

"Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli dövlət başçıları.

Əziz dostlar.

İlk növbədə, Mərkəzi Asiya Dövlət Başçılarının görüşündə fəxri qonaq qismində iştirak üçün dəvətə görə Qazaxıstan Prezidentinə təşəkkür etmək istərdim.

Ötən il mən Tacikistan Prezidenti Emoməli Şaripoviç Rəhmonun dəvəti ilə Düşənbədə keçirilən Sammitdə iştirak etmişəm.

Azərbaycanın bu görüşlərə dəvət olunması ölkələrimiz arasında mövcud dostluq, qardaşlıq münasibətlərindən və inkişaf etməkdə olan əməkdaşlıqdan xəbər verir.

Bu, son iki ildə mənim Mərkəzi Asiya ölkələrinə 16-cı səfərimdir. Həmin müddətdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan həmkarlarım Azərbaycanı ümumilikdə 15 dəfə ziyarət ediblər. Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur. Xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din və ortaq dəyərlər birləşdirir.

Ermənistanın işğalından azad edilmiş Qarabağın bərpasına dəstək qardaşlıq münasibətlərimizin təzahürlərindən biridir.

Ermənistan tərəfindən təxminən 30 illik işğal dövründə bu ərazilərdə 9 şəhər və yüzlərlə yaşayış məntəqəsi məhv edilib. İşğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı bərpa işləri aparılır və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı davam edir.

Ötən il Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan Mirzə Uluqbəy adına orta məktəbin, bu il isə Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olub. Həmçinin bu il Ağdam rayonunda Qırğızıstanın hədiyyəsi olan orta məktəb binasının təməlqoyma mərasimi keçirilib. Bu qardaşlıq dəstəyinə görə Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentlərinə təşəkkürümü bildirirəm.

Dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir. Bu xüsusda, ötən ay Qazaxıstanda keçirilmiş və Azərbaycanın da iştirak etdiyi "Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimini xüsusilə vurğulamaq istərdim. Həmçinin Azərbaycanın hərbi təhsil müəssisələrində Mərkəzi Asiya ölkələrindən olan müdavimlərin təhsil almaları bu sahədə münasibətlərin inkişafının göstəricisidir.

Azərbaycan bərpaolunan enerji sahəsində Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlıdır. Bu ilin may ayında imzalanmış "Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu" yaşıl enerji sahəsində əməkdaşlığımızda ilk addımdır.

Qarşılıqlı fəaliyyətimizin mühüm istiqamətlərindən biri də nəqliyyat-tranzit sahəsində əməkdaşlıqdır. Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək artırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması istiqamətində görülmüş işlər, Xəzər dənizində Azərbaycanın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi Orta Dəhlizin praktiki cəhətdən önəmini daha da artırır.

Qazaxıstan, Qırğızıstan və Özbəkistan ilə fəal şəkildə investisiya layihələri həyata keçirilir. Artıq Azərbaycan-Qazaxıstan, Azərbaycan-Qırğızıstan və Azərbaycan-Özbəkistan birgə investisiya fondları yaradılıb. Həyata keçirilən "Rəqəmsal İpək Yolu" layihəsi rəqəmsal infrastrukturun inkişafına və rəqəmsal təhlükəsizliyə töhfə verəcəkdir.

Azərbaycan və Mərkəzi Asiya ölkələri beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Bu xüsusda, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı – SPECA-nı qeyd etmək istərdim. Ötən ilin noyabr ayında Bakıda keçirilmiş, SPECA-nın 25 illiyinə həsr olunmuş Zirvə görüşünün nəticələri əməkdaşlığımızın praktiki inkişafı baxımından əhəmiyyət kəsb edir. SPECA-nın Bakıda keçirilən Sammitində iştirak etdiklərinə görə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan prezidentlərinə bir daha təşəkkür edirəm.

Azərbaycan beynəlxalq ictimaiyyətin yekdil dəstəyini qazanaraq bu ilin noyabr ayında COP29 iqlim konfransına ev sahibliyi edəcəkdir. Azərbaycan COP29-a sədrliyi çərçivəsində regionumuzda iqlim dəyişmələri ilə bağlı problemlərin həlli üçün Mərkəzi Asiya ölkələri ilə birgə təşəbbüsləri dəstəkləməyə hazırdır.

Mən artıq Mərkəzi Asiya ölkələrinin prezidentlərinə rəsmi dəvət məktubları göndərmişəm və noyabrda Bakıda yenidən görüşməyimizə şad olaram."

Dünən həmçinin Astanada Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə "Mərkəzi Asiya Dövlət Başçılarının Fəxri nişanı"nın təntənəli təqdim edilməsi mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və digər dövlət başçıları tədbirdə iştirak ediblər.

# YAP Mərkəzi Aparatında ATƏT DTİHB Seçki Müşahidə Missiyasının əsas heyətinin üzvləri ilə görüş keçirilib

**Avqustun 9-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Seçki Müşahidə Missiyasının rəhbəri Ditmir Buşati, missiya rəhbərinin müavini Elissavet Karagiannidou və siyasi analitik Noemi Arçidiakono ilə görüş keçirilib. Görüş imkanının yaradılmasına görə təşəkkürünü bildirən Ditmir Buşati ATƏT DTİHB missiyasının tərkibi və fəaliyyəti barədə məlumat verib. O, rəhbərlik etdiyi heyətin ATƏT DTİHB-nin Azərbaycandakı 14-cü seçki müşahidə missiyası olduğunu söyləyib. O, Azərbaycanda seçkilərə hazırlıq prosesini öyrənmək məqsədilə müvafiq dövlət qurumlarının nümayəndələri, seçkilərdə iştirak edən partiyalar və namizədlərlə görüşlər keçirdiklərini diqqətə çatdırıb.**



YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycanın seçki təcrübəsi barədə ətraflı məlumat verib. O bildirib ki, Azərbaycan uzun illərdir ATƏT DTİHB ilə əməkdaşlıq edir, qurum ölkəmizdə keçirilən prezident, parlament və bələdiyyə seçkilərini müşahidə edir.

Tahir Budaqov 2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərlə əlaqədar bütün namizədlərə bərabər şəraitin yaradıldığını və yüksək rəqabət mühitinin olduğunu vurğulayaraq seçkilərin azad, şəffaf və demokratik şəraitdə baş tutacağına əminliyini ifadə edib. O, Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlıq tədbirləri, namizədlərin qeydiyyatı, partiyanın seçki platforması və digər təşviqat materialları haqqında ümumi məlumat verərək YAP-ın bütün prosedurları qanun çərçivəsində və maneəsiz olaraq həyata keçirdiyini bildirib. Tahir Budaqov hazırda qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla seçkiqabağı təşviqat işlərinə başlanıldığını və partiya fəallarının bu prosesə aktiv cəlb edildiklərini diqqətə çatdırıb.

Daha sonra müşahidə missiyası üzvlərinin seçki prosesinə dair suallarını cavablandıran YAP Sədrinin müavini Tahir Budaqov missiyanın fəaliyyətinə uğurlar arzulayıb.

# "Azərbaycan bərpaolunan enerji sahəsində böyük nailiyyətlərə imza atıb"

## *"The National News" portalı Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün hazırlığından yazıb*






***Birləşmiş Ərəb Əmirliklərinin "The National News" nəşrində Azərbaycanın bu ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməyə hazırlaşmasına dair məqalə yayımlanıb.***

Belə ki, 2-ci Şuşa Qlobal Media Forumunun iştirakçısı Con Dennehinin müəllifi olduğu yazıda Prezident İlham Əliyevin Forumun açılış mərasimində jurnalistlərin suallarını cavablandırarkən səsləndirdiyi fikirlərə də yer verilib.

Məqalədə qeyd olunub ki, Azərbaycan bu ilin noyabrında COP29-a ev sahibliyi etməklə dünyanın müxtəlif bölgələri arasında növbəti dəfə körpü rolu oynayacaq. Azərbaycan Prezidentinin "Bizim üçün bu, misilsiz bir şansdır ki, ən yüksək liqaya daxil oluruq", - sözlərini xüsusi vurğulayan müəllif qeyd edib ki, Prezident İlham Əliyev Azərbaycanın Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qurduğunu diqqətə çatdırıb.

Yazıda Azərbaycanın neft sənayesinin tarixindən geniş bəhs olunub, dünyada sənaye üsulu ilə ilk neft quyusunun ölkəmizdə qazıldığı, Bakının bir vaxtlar dünyanın neftə olan tələbatının yarısını ödədiyi vurğulanıb. Bildirilib ki, məhz buna görə Azərbaycan qədim dövrlərdən "Odlar yurdu" adlandırılır.

Müəllif qeyd edib ki, zəngin qazıntı yanacağı resurslarına malik ölkə hazırda iqlim dəyişikliyi məsələlərinin müzakirə olunduğu COP29 kimi mötəbər tədbirə ev sahibliyi etməyə hazırlaşır. Təxminən üç aydan sonra 200-ə yaxın ölkədən nümayəndələr Bakıda bir araya gələrək iqlim dəyişikliyi məsələsini həll etməyə çalışacaqlar. Azərbaycanın iqlim dəyişikliyindən əziyyət çəkən ölkələrin problemlərinə xüsusi həssaslıq göstərdiyi vurğulanıb, Prezident İlham Əliyevin iqlim dəyişikliyi məsələsində hələ də qeyri-müəyyənliklərin olması, xüsusilə Qərbin bu məsələdə qeyri-obyektiv mövqeyi barədə fikirləri diqqətə çatdırılıb: "Bir tərəfdən Avropa bizdən xahiş edir ki, hasilatı artıraq və onu Avropaya nəql edək. Çünki onların buna ciddi ehtiyacı var. Digər tərəfdən, onlar bunu maliyyələşdirmirlər... Yəni, biz ağılsızıq ki, onların ehtiyacı olmadığı qaza 10 milyardlarla vəsait qoyaq? Yəni, sonra da deyək ki, bizim qazımız haradadır. Yəni, mənim mesajım o oldu ki, gəlin, bu oyuna son qoyaq, faydalı qazıntı yanacağı olmadan yaşamaq mümkün deyil".

Yazıda Azərbaycanın bərpaolunan enerjinin inkişafı, ölkəmizin bu sahədə həyata keçirdiyi layihələr barədə ətraflı söhbət açılıb, dövlətimizin başçısının Azərbaycanın bərpaolunan enerji sahəsində böyük nailiyyətlərə imza atması barədə fikri xüsusi vurğulanıb. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin inşa etdiyi 230 meqavat gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının ötən il istifadəyə verildiyi xatırlanıb. "Masdar" şirkətinin Azərbaycan üzrə meneceri Murad Sadıqov bildirib ki, neft hasilatında qabaqcıl ölkə olan Azərbaycan yaşıl enerji sahəsində də ön sıralarda olmaq istəyir: "Əgər dünya dəyişirsə, Azərbaycan da liderlərdən biri olmalıdır. Bakının havası əvvəlkindən qat-qat təmizdir. Hökumət bu işləri davamlı olaraq həyata keçirir".

Müəllif Azərbaycanın ev sahibliyi edəcəyi COP29-da iqlim danışıqlarında maliyyə məsələsinin ön planda olacağını vurğulayıb: "COP29-u uğurla keçirmək üçün Bakının qarşısında məsul vəzifə var – maliyyə. Bu tədbirdə qalıq yanacağından uzaqlaşmaq prosesinin necə maliyyələşdiriləcəyi ön plana çıxacaq. Dünya inkişaf etməkdə olan ölkələr üçün illik 100 milyard dollar həcmində yeni maliyyə öhdəliyi ilə razılaşmalıdır".



The National

The National Climate

**Fossil fuel-rich Azerbaijan prepares to host crucial Cop29 climate talks**

Can Baku, one of the birthplaces of oil, confound doubters and deliver an ambitious climate outcome for the world?

John Dennehy
Baku
25 July, 2024

Rows of oil rigs dot the shores of the Caspian Sea; derricks abound across the city and flares from refineries puncture the sky.

This is Baku, the capital of Azerbaijan, where in just a few months the world will gather to tackle climate change.

Yazıda COP29-un müəyyən olunmuş Prezidenti Muxtar Babayevin bu mühüm məsələ barədə danışıqların aparılmasına dair fikrindən sitat gətirilib: "Hazırda danışıqlar prosesindəyik. Bütün ölkələr bu yeni məqsədləri başa düşür və daha iddialı olmalıdırlar".

Məqalədə Azərbaycanın onilliklərlə davam edən münaqişəyə son qoyulması məqsədilə aparılan sülh prosesi fonunda Ermənistanı COP29-a dəvət etdiyi qeyd olunub. Jurnalist Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bu məsələ ilə bağlı fikirlərinə istinad edib: "Azərbaycan indi Qarabağ münaqişəsinin sonundadır. İndi biz bu səhifəni çevirdik və sülh haqqında düşünürük. Biz, həmçinin sülh və COP29 anlayışını birləşdiririk".

Qeyd edilib ki, COP29 Bakı Olimpiya Stadionunda keçiriləcək. Hazırda bu arenada COP29-a geniş hazırlıq işləri görülür. COP29-un baş icraçı direktoru, Azərbaycanın energetika nazirinin müavini Elnur Soltanov burada yaradılacaq zonalar barədə məlumat verib. O bildirib ki, Azərbaycan bu tədbirə ev sahibliyi etmək üçün geniş logistik imkanlara və yüksək qonaqpərvərliyə malikdir.

# Çoxüzlü Ermənistan



*Ermənistan adlı dövlətin özünüməhvetmə prosesi başlayıb. Soruşa bilərsiniz necə? Sualın cavabı da bəsiddir. Çünki, bir dövlət ki, qondarma ola, kökündə, mayasında tarixin qalın kitablarında yazılanların ona heç bir aidiyyəti olmaya, onda hansı dövlətdən danışmaq olar. ABŞ prezidenti olmuş Vilsonun kağız üzərində olan mifiq dövlətindənmi, yoxsa ABŞ-ın yaxın müttəfiqi olan Türkiyəni sarsıtmaq üçün Rusiyanın ortaya atdığı qondarma "soyqırımı"ndanmı söhbət açaq? Amma bu əsassız iddialar üzərində baş sındırmağa dəyməz, çünki hamısı yalan.*

Ermənistan adlı qondarma dövlətin bu gün tasmatutanları sayəsində Azərbaycana qarşı hansı oyunlar qurduğunu ifşa etmək hər zaman aktualdır. Bu gün İrəvan ona dövlətçilik qazandıran Rusiyaya qarşı hürməyi öyrənir. Yeni sahibinin yanından, yaxud qucağından daha uca səslə bağıracağını düşünən ermənilər xislətinə uyğun olaraq yenə qarayaxma kampaniyası aparırlar. Azərbaycanın Ermənistanı məhv etmək niyyətində olduğunu sanki yeni xəbər kimi tirajlayırlar. Bu barədə "Ermənistan xəbərləri"nə açıqlamasında erməni ictimai-siyasi xadim Tevan Poqosyan deyib. "Əliyev dəfələrlə Ermənistan Konstitusiyasının dəyişdirilməsi tələbindən danışıb. Sizcə, Azərbaycan sülh müqaviləsi imzalamaq istəyirmi? Yox, ona görə də hər gün yeni bir şey deyirlər. Artıq dörd ildir ki, Ermənistanda Azərbaycanın daha çox yeni tələbləri müzakirə olunur. Ermənistanla münasibətlərdə Azərbaycana bu sənəd lazım deyil, Rusiya, ABŞ, Aİ və digər aktorlarla diplomatik oyunlarda bu sənədə ehtiyac var". Onun fikrincə, Ermənistan hakimiyyəti yalnız öz yerlərini saxlamaq istəyir və əgər bu, sülh müqaviləsindən danışmaq tələb edirsə, onlar bunu edəcək, hər şeydən əl çəkəcək və əvəzində heç nə almayacaqlar.




Erməni politoloq iddia edir ki, Ermənistanda hakimiyyətdə ölkənin taleyi ilə maraqlanmayan insanlar var, əks halda bu gün başqa mexanizmlər işləyəcəkdi. "Belə olan halda onlar başa düşəcəklər ki, uduzan danışıqçı daha çox məğlubiyyətə səbəb ola bilər və ayrılacaq. Ölkənin başında erməni maraqlarından narahat olan səlahiyyətli şəxslər olsaydı, dərhal Toivo Klaarın bəyanatından istifadə edərdilər, lakin bu, edilmədi, amma Azərbaycan etdi. Bu arada xatırlatmaq olar ki, həmin Klaar 2023-cü ildə Qarabağda ermənilərə qarşı aparılan etnik təmizləmə zamanı belə bəyanatlar verməyib", - deyə Poqosyan vurğulayıb.

O hesab edir ki, Ermənistanın qısamüddətli səhvi 2021-ci ildə keçirilən növbədənkənar parlament seçkilərinin nəticələri ilə başlayıb, o zaman 10 milyon azərbaycanlı, 80 milyon türk və 2000 erməni vəzifə almaqdan məmnun qalıb. "Sonra biz milli maraqları unudub şəxsi səviyyədə məsələləri müzakirə etməyə başladıq. Bu gün Ermənistan səhv etməkdə davam edir", - deyə Poqosyan yekunlaşdırıb.

## Ermənilər yenə Rusiyanın bostanına daş atır

Erməni mətbuatı yazır ki, Kreml rejimi üçün geri sayım artıq başlayıb. Aİ və NATO-ya inteqrasiyaya diqqət yetirmək Ermənistan üçün tarixi baxımdan düzgün, qənaətcil istiqamətdir. "İlahi, bizim Rusiya necə də kədərlidir!". Bu ifadəni Puşkin Qoqoldan sonra söyləyib, 1836-cı ilin yayında xaricə getməzdən əvvəl ona "Ölü canlar"ın ilk fəsillərini oxuyun. Müasir Rusiyanın sakinləri indi öz ölkələrindəki vəziyyəti qiymətləndirərkən başqa, qeyri-ədəbi ifadələrdən istifadə edirlər. Kursk vilayətinin sakinləri bu günlərdə xüsusilə temperamentli və ifadəlidirlər.

Sosial şəbəkələrdəki çoxsaylı videolardan da göründüyü kimi, onlar "Kadırovçular"ı açıq-aşkar lağa qoyurlar və onlara nifrət yağdırırlar. Rusiya Federasiyasının Baş Qərargah rəisi Valeri Gerasimov da az lənətlənmir. Nəfəs aldığı kimi yalan danışır. Məsələn, Ukrayna hərbçilərinin itkilərinin 315 nəfər olması, 54 zirehli texnikanın, o cümlədən 7 tankın məhv edilməsi barədə. "Əməliyyat düşməni məğlub etməklə və dövlət sərhədinə çatmaqla başa çatacaq", - Gerasimov söz verib. Yaxşı, o, Rusiya prezidenti Vladimir Putinə başqa nə deyə bilərdi? Həqiqəti söyləmək yaxşı deyil. Rusiyada başqa vaxtlarda çara həqiqəti söylədiklərinə görə dirəyə vurulurdular. Gerasimov anlayır ki, keçmiş dövrlər indiki vaxtdan çox da fərqlənmir. O, qətiyyən dirəyə vurulmaq istəmir.

Lakin rusiyalı hərbçi Yeqor Quzenko onu fəal şəkildə ora itələyir. Gerasimovu yalançı kimi göstərdi. Quzenkonun sözlərinə görə, Rusiya Baş Qərargah rəisinin məlumatı reallığa uyğun gəlmir. Quzenko iddia edir ki, Ukrayna qüvvələrinin hücumu nəinki dayandırılmayıb, əksinə, uğurla irəliləyir, Rusiya Federasiyası ərazilərini itirir: "Və bu zaman düşmən artıq bu rəqəmə çatana qədər Rusiya dövlət sərhədinin 25 km dərinliyinə qədər irəliləyib. televiziyadan tutmuş Ali Baş Komandana, Müdafiə Nazirinə, FSB rəisinə qədər... deyir ki, bizdə hər şey yaxşıdır, hücum dayandırıb...".

Bundan əlavə, Ukrayna Silahlı Qüvvələrinin Sudja qazölçmə stansiyasını ələ keçirməsi barədə məlumatlar var idi. Stansiya eyniadlı keçid məntəqəsinin yaxınlığında yerləşir. "Sudja" GIS Avropaya tranzit üçün qazın vurulduğu yeganə stansiyadır. Qazprom oradan sutkada 42 milyon kubmetr qaz tədarük edir. Orada hər şeyin bundan sonra necə inkişaf edəcəyini zaman göstərəcək. Ancaq Rusiyanın başında olanların hərəkətlərini izləmək artıq gülməlidir. "Ukrayna ordusunun Kursk vilayətində Rusiya Federasiyasının dövlət sərhədini pozması Ukraynanın növbəti "irimiqyaslı təxribatı"dır", - Rusiya prezidenti Vladimir Putin hökumətlə görüşdə deyib.

Onun sözlərinə görə, Ukrayna qoşunları "mülki binalara, yaşayış binalarına və təcili yardım maşınlarına müxtəlif növ silahlardan, o cümlədən raketlərdən atəş açır". Nə ədalətsizlik! Və belə çıxır ki, Rusiya ordusu, demək olar ki, 900 gündür ki, Ukraynada seçmə olaraq yalnız sərçələrə atəş açır?




Erməni mətbuatı Rusiya XİN-in sözçüsü Mariya Zaxarovadan da yazıb və onun danışdıqlarını "gülməli" kod işarəsi altında qeyd edib. "Beynəlxalq ictimaiyyət Ukrayna Silahlı Qüvvələrinin Kursk vilayətinə hücumunu və Ukrayna ordusunun Rusiyanın mülki əhalisinə qarşı cinayətlərini pisləməlidir", - Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi bildirib. Və əlavə edib ki, "biz beynəlxalq ictimaiyyəti Kiyev rejiminin cinayət əməllərini qınamamağa və kəskin şəkildə pisləməyə çağırırıq.

Ermənilər Zaxarovanı "gülməli və acınacaqlı xarakter"adlandırıblar: "Bu tərif Rusiya hökumətinin bütün nümayəndələrinə uyğun gəlir. Artıq geri sayım başlayıb. Bu isə Ermənistanın qanlı rus qucağından əbədi xilas olmaq üçün tarixi şansdır. Aİ və NATO-ya inteqrasiyaya diqqət yetirmək Ermənistan üçün tarixi baxımdan düzgün, qənaətcil istiqamətdir. Biz artıq demokratik Qərbin dəstəyini hiss edirik. Amma qarşıda Ermənistanın süqut edən imperiyadan real müstəqillik əldə etməsi üçün hələ çox mühüm döyüşlər var. O, mütləq sonda pis oyun oynamağa çalışacaq. Öz əlinizlə və başqaları ilə. Buna baxmayaraq, biz nəyin bahasına olursa-olsun sivilizasiya seçimimizi müdafiə etməyə borcluyuq.

## Regional oyunçular və Ermənistan

"Bütün regional oyunçular bu və ya digər şəkildə bizneslə məşğuldurlar. Baş naziri qürurla susduğu Ermənistandan başqa". Bunu deyən politoloq Ruben Marqaryan qeyd edib ki, bütün dünya gərgin intizar içində donub qalıb: İran İsrailə nə vaxt və necə cavab verəcək. Cavab nə qədər güclü olacaq. Bu, qlobal münaqişəyə səbəb ola biləcək genişmiqyaslı regional müharibəyə gətirib çıxaracaqmı? Tehran fasilədədir. Bir məşhur ədəbi qəhrəmanın reseptinə görə, o öyrətdi ki, əgər siz artıq fasilə vermişsinizsə, mümkün qədər uzun müddət saxlayın...

Tehran fasilə verib və tələsmir. Doğru şeyi edir. Məşhur ifadəni xatırlayaq ki, qisas soyuq şəkildə verilməyi sevən yeməkdir. İran bu sadə düsturu başa düşür. İran niyə tələsməlidir? Tehran bir sıra Yaxın Şərq ölkələrindəki hava limanlarından tutmuş birjalara qədər çaxnaşmanı gücləndirməkdə və müşahidə etməkdə davam edir.

Amerikalılar İsraili dəstəkləmək üçün öz kreyserlərini münaqişə zonasına göndərirlər. Moskva Moskvanın necə kömək edə biləcəyini müzakirə etmək üçün Şoyqunu Tehrana göndərdi. Tehrandan Şoyqu Əliyevə izahat vermək üçün Bakıya getdi ki, İsrailin müttəfiqi Azərbaycan çox sərt təpik vurmasın. Yeri gəlmişkən, İsrail neftinin 62%-ni Azərbaycan və Qazaxıstan verir...

Avropa Birliyi də bir az panikaya düşüb, amma nəhayət öz sözünü deyib. Borrelin sözlərinə görə, qlobal münaqişənin qarşısını almaq üçün Qəzzada zorakılıq dayandırılmalıdır. "Yaxın Şərqdə gərginlik artmaqda davam edir və onu görünməmiş miqyasda müharibə həddinə çatdırır. Biz hamımız daha bir fəlakətin qarşısını almalıyıq... İrəli yol əsasən razılaşdırılıb: Qəzzada atəşkəs. Gərginliyin azaldılmasına mane olan hər kəs cavabdeh olacaq!", – deyə Aİ-nin Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Josep Borrell X səhifəsində yazıb.

Dünya müharibəsi təhlükəsi Tehranın pauza ilə əldə edə bildiklərinin ilk əlamətidir... Yaxşı, görək ondan nəsə çıxacaqmı, yoxsa İsrail ABŞ-ın dəstəyinə arxalanaraq Qəzzada geri çəkilməyəcək. Hamı həyəcanlıdır. Kanada diplomatik personalını İsraildən təxliyə etməyə başlayıb. Hər kəs öz mövqeyini bildirir. Ankara İsrailin əleyhinədir, Bakı onun tərəfdarıdır, Moskva İranı, ABŞ İsraili dəstəkləyir. Bütün regional oyunçular bu və ya digər şəkildə bizneslə məşğuldurlar. Bir ölkə istisna olmaqla: Baş naziri qürurla susduğu Ermənistan. Sadə səbəbə görə, bütün regional oyunçular sussalar da, olmasalar da, böyük ölçüdə bölünürlər. Çünki ondan heç nə asılı deyil və Ermənistanın fikri heç kəsi maraqlandırmır.

2020-ci ildən əvvəl belə deyildi, amma indi reallıqdır. Çünki Qarabağı işğal etmiş Ermənistan bir şey idi, onu itirən Ermənistan başqadır. Bu həm də zaman-zaman regional oyunçuların ayaqları altında çırpınmaqdır...

Nikol Paşinyan dövründə Ermənistanda həyatın gözəlliyi budur: yeyin, için, günəş vannası qəbul edin, müxtəlif ölkələrin məxfi xidmətlərinin öz xırda maraqları üçün ölkənizi necə əlindən aldıqlarına baxın və istefa ilə sizsiz orada nəyin həll olunacağını gözləyin.

**V.VƏLİYEV**

RAKURS

# Azərbaycan beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edir

***Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi uğurlar dünyanın əksər ölkələri, beynəlxalq təşkilatlarala əlaqələrinin daha da inkişaf etdirlməsinə yeni təkan olur. Aydın siyasi iradənin, çağdaş hüquqi dövlət quruculuğu işində mühüm uğurlar əldə edilməsinin nəticəsi olaraq Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, Avropa Şurasının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, GUAM-ın üzvüdür. Eyni zamanda Azərbaycan NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlıq edir. Azərbaycan dövlətinin ciddi, əsaslı siyasəti, ölkədaxili iqtisadi inkişafı ilə bu nüfuzlu təşkilatlarında ən etibarlı, yüksək inam bəslənən dövlət imici qazanıb.***

Bu da dünyanın demokratik, aparıcı dövlətləri ilə yeni əməkdaşlıq münasibətləri yaradıb. 2006-cı il mayın 9-da BMT Baş Assambleyasında keçirilən seçkilər nəticəsində Azərbaycanın bu quruma üzv seçilməsi ölkə¬mizin əldə etdiyi ən mühüm nailiyyətlərindən biridir. Azərbaycan-BMT əlaqələrinin inkişafı, möhkəmlənməsi və ölkəmizin bu təşkilatda böyük nüfuz qazanmasını göstərən ən əhəmiyyətli hadisə isə 2011-ci il oktyabrın 24-də Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və bu quruma rəhbərlik etməsi olmuşdur. Beynəlxalq təşkilatlarla, dünya dövlətləri ilə səmərəli əməkdaşlıq əlaqələrinin qurulması və əlaqələrin dövlətlərin maraqlarına uyğun inkişaf etdirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasətinin ana xəttini təşkil edir.




Bu baxımdan Azərbaycan beynəlxalq təşkilatlarda daim aktiv fəaliyyət göstərməsi ilə fərqlənmiş və milli maraqlarımızın təmin olunmasına yönəlmiş siyasət həyata keçirmişdir. Ölkəmizin beynəlxalq təşkilatlarda nüfuzunun yüksək olmasının nəticəsidir ki, Azərbaycan 2019-cu ildən etibarən Qoşulmama Hərəkatına sədrlik edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Qoşulmama Hərəkatı dünyanın inkişafına mühüm töhfələr verən qlobal əhəmiyyətli tədbirlər keçirlib. Koronavirus pandemiyasının qarşısının alınması və dövlətlərin bu istiqamətdə əməkdaşlığının gücləndirilməsi üçün Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə Qoşulmama Hərəkatının videokonfrans formatında toplantısı keçirilib. Eyni zamanda, dünya ölkələrinin pandemiya ilə mübarizədə fəaliyyətlərinin artırılması məqsədi ilə bu il Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının konfransı keçirilib. Dəfələrlə Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələrində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin sammitlərində, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 7-cı Zirvə toplantısında, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərində və digər tədbirlərdə iştirakı, eyni zamanda, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın Zirvə görüşünün Azərbaycanda keçirilməsi ölkəmizə marağın əyani təcəssümüdür. Prezident İlham Əliyev “China Global Television Network” telekanalında yayımlanan müsahibəsində demişdir: “Mərkəzi Asiya ölkələri inkişaf edir və ixracyönümlü daha çox məhsul istehsal edir. Həmçinin daha çox məhsul alır və bu baxımdan Xəzər dənizi marşrutu həyati əhəmiyyət kəsb edir. Xoşbəxtlikdən biz illər əvvəl ev tapşırığımızı yerinə yetirmişik və hər bir şey hazırdır. İndi isə bu infrastrukturu genişləndirmək asan olacaq. Həmçinin nəqliyyat infrastrukturunun genişləndirilməsinə yatırılacaq vəsait təxmin edilən yük həcminə uyğun olacaq... Mən ötən il və bu il bütün Mərkəzi Asiya ölkələrinə səfər etmişəm və bu ölkələrin rəhbərləri Azərbaycana səfər ediblər. Bu gün bizim ikitərəfli münasibətlərimizdə daha çox dinamizm var. Birincisi, biz buna ehtiyacın olduğunu görürük. Digər tərəfdən isə bizim hər zaman gözəl münasibətlərimiz olub. Eyni zamanda, daşımalar marşrutları mövzusu daha fəal əməkdaşlığı diktə edir. Beləliklə, əminəm ki, Xəzər dənizi ilə yükdaşımalarının illik statistikasına nəzər saldıqca biz rəqəmlərin artacağının şahidi olacağıq”.

## Azərbayacan türk dünyasının beynəlxalq aləmdə özünəməxsus yer tutmasında xüsusi rol oynayır

Azərbaycan ordusunun sentyabrın 27-dən erməni terrorçularına qarşı Qarabağda uğurlu hərbi əməliyyatlar apardığı zaman İslam Konfransı Təşkilatının, Qoşulmama Hərəkatının, Türk Şurasının, BMT Təhlükəzsilik Şurasının daimi üzvlərinin irəli sürdükləri separatçı layihəyə qeyri-daimi üzvlərin sərt münasibət bildirmələri və ayrı-ayrı ölkələrin Azərbaycanın haqq işini, ədalətli mövqeyini müdafiə etmələri ölkəmizin dünyada böyük nüfuza malik olması ilə bağlıdır. Dövlətimizin uğurlu xarici diplomatiyasının prioritetlərindən biri də türk dünyasının qarşılıqlı əlaqələrinin möhkəmlənməsidir. Azərbaycan Prezidenti İlham Əliyev bütün sahələrdə olduğu kimi, türk dünyası ilə əlaqələrin inkişafına xüsusi önəm verir. Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri, strateji müttəfiqliyi, beynəlxalq təşkilatlarda, diaspor fəaliyyətlərində eyni maraqlardan çıxış edilmələri dünya xalqları və dövlətləri üçün həsəd aparılan, paxıllıq hissi yaradan məsələyə çevrilib. Sentyabrın 27-dən Qarabağda aparılan uğurlu təmizləmə əməliyyatlarında Türkiyə hakimiyyəti və xalqı Azərbaycan dövlətinə, ordusuna ən yüksək səviyyədə mənəvi, siyasi, diplomatik dəstək göstərdi. Bununla yanaşı Ermənistan üzərində parlaq qələbə münasibəti ilə dekabrın 10-da Bakıda keçirilən Qələbə Paradında Türkiyənin hökumət və dövlət rəhbərləri, o cümlədən Prezident Rəcəb Tayyib Ərdoğan iştirak etdi. Türkiyə Silahlı Qüvvələrinin mehmetçiklərinin Qələbə Paradında sıra keçidində iştirak etməri bütün Türk dünyasına qürurverici anlar yaşatdı. Bu nümunəvi dəstək Ulu Öndər Heydər Əliyevin Türkiyə- Azərbaycan qardaşlığı barədə dediyi ”bir millət iki dövlət”, Mustafa Kamal Atatükün ”Azərbaycan xalqının sevinci sevincimiz, kədəri kədəimizdir” tarixi fikirlərinin ruhuna tam uyğundur. Məhz buna görə də, türk dünyasının beynəlxalq aləmdə özünəməxsus yer tutması uğrunda müasir dövrün türk liderləri olaraq Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan böyük xidmət göstərməkdədirlər. Hər iki ölkənin liderləri təkcə Türk Şurasının Zirvə Görüşlərində, Türk PA-da TÜRKSOY-da deyil, bütün sahələrdə əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli addımlar atır, qərarlar verirlər. İki dost, qardaş ölkə arasında iqtisadi-ticarət əlaqələri də, hər il artmaqdadır.

Hazırda Türkdilli dövlətlər arasında Azərbaycan Türkiyə iqtisadiyyatına ən çox sərmayə qoyan ölkələrdən biridir.Hal-hazırda Azərbaycanın Türkiyə iqtisadiyyatına sərmayəsi 25 milyard, Türkiyənin Azərbaycan iqtisadiyyatına qoyulan sərmayəsi isə 22 milyard dollar təşkil edir. Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsindən sonra bölgədə aparılan quruculuq, təmir, bərpa işlərində Türkiyə dövlətinin çoxsaylı şirkəti yaxından iştirak edir. Bu da işğaldan azad edilən ərazilərə Türkiyənin daha böyük həcm də investisiya qyuluşundan xəbər verir.

## Sentyabrın 1-də Azərbaycanda keçiriləcək parlament seçkilərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu daha yaxından iştirak etmək niyyətindədir

Azərbaycan dövləti BMT-nin UNESKO, UNİCEF və digər xüsusiləşdirilmiş təşkilatları ilə genişmiqyaslı əməkdaşlıq əlaqələrinə malikdir. Bu əlaqələr çərçivəsində Azərbaycan-BMT birgə layihələri icra edilib və bu layihələrin həyata keçirilməsi demokratik institutlarının inkişafına mühüm töhfələr verib. Azərbaycan ATƏT-lə də geniş əməkdaşlıq əlaqələrinə malikdir. Bu əlaqələr daha çox seçkilərin müşahidəsi, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun xəttilə həyata keçirilən layihələr və digər məsələlərdir. Sentyabrın 1-də Azərbaycanda keçiriləcək parlament seçkilərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu daha yaxından iştirak etmək niyyətindədir. Bununla bağlı MSK-ya 300 nəfərin seçkiləri müşahidə etmək istədiyini qeyd etməsi də təsdiq edir. Ölkəmizin dünyada baş verən bütün siyasi-ictimai proseslərə təsir etmək imkanlarına malik olan Avropa İttifaqı ilə münasibətlər, əməkdaşlıq əlaqələri ən yüksək səviyyədə inkişaf etməkdədir. Bu mötəbər qurumla Azərbaycan arasında imzalanmış “Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi”ndə tərəflər arasında siyasi və ticarət sahəsində əməkdaşlıq, Azərbaycanın qanunvericiliyinin Avropanın hüquq sisteminə uyğunlaşdırılması məsələləri öz əksini tapmışdır. Avropa İttifaqı ilə əməkdaşlığa Azərbaycanın xüsusi önəm verdiyini bildirən Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, Azərbaycan Avropa İttifaqı ilə münasibətlərin inkişafında maraqlıdır və bunu dövlət siyasətinin prioriteti hesab edir: “Bu gün Azərbaycan Asiya ilə Avropa arasında yerləşən, regionumuzda dərin kökləri, Avropa ilə güclü əlaqesi olan, Avropa dəyərlərini paylaşan bir ölkədir. Biz Avropa təsisatlarından aldığımız dəstəyə görə minnətdarıq. Əminəm ki, qarşıdakı illərdə Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlıq uğurla davam edəcək və tezliklə bizim qarşımızda yeni imkanlar açacaq yeni saziş imzalayacağıq”. Birmənalı şəkildə demək olar ki, Azərbaycan Avropa İttifaqı üçün əhəmiyyətli tərəfdaşdır. Bunu qurumun rəhbərləri də çıxışlarında vurğulayıblar və Azərbaycanın Avropanın enerji təchizatında önəmli rol oynadığını qeyd ediblər. Uzunluğu 3500 kilometr olan ”Cənub Qaz Dəhlizi” layihəsinin reallaşması ilə Xəzər regionundan qaz təchizatının Avropa bazarlarına birləşdirməsinə nail olunur.

Eyni zamanda, Azərbaycan qurumun 23 ölkəsi ilə ikiqat vergitutmanın aradan qaldırılması, 18 ölkəsi ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması, 14 üzv ölkə ilə isə Hökumətlərarası Komissiyanın yaradılması haqqında saziş imzalanıb.

Bir sözlə, Azərbaycan dövləti apardığı düzgün siyasətlə və sahib olduğu resurslardan səmərəli istifadə etməklə, beynəlxalq təşkilatlarla qarşılıqlı-faydalı əməkdaşlıq əlaqələri formalaşdırır və milli maraqlarını tam şəkildə təmin edir. Düşünülmüş bu siyasətin həyata keçirilməsi ilə Azərbaycan hələ çox uğurlara imza atacaq və beynəlxalq aləmdə artan nüfuzunu daha da möhkələndirəcək.

***İLHAM ƏLİYEV***

# Vətəndaşın ən yaxın və sadiq "DOST"u

***Xalqımızın çoxəsrlik tarixində yardım etmək milli adət-ənənələrimizin əsas xəttini təşkil edib. Yardıma çatmaq, kömək olmaq isə zamanla əsl qonşu, yaxşı dost məfhumlarının formalaşmasına səbəb olub. Beləliklə də Azərbaycan xalqının sədaqətli dost kimi fərdi xüsusiyyəti başqa xalqlarla müqayisədə hər zaman üstünlük təşkil edib.***




Bu tarixi ənənə isə təbii ki, müasir cəmiyyətdə ümumilikdə vətəndaş rifahına xidmət edəcək başqa bir formada davam etdiriləcəkdi ki, bunu 6 il əvvəl ölkə başçısının "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin yaradılmasında gördük. Bu gün 6 yaşı tamam olan agentliyin missiyası əhalinin əmək, məşğulluq və sosial müdafiə xidmətlərinə DOST mərkəzləri şəbəkəsi vasitəsilə müasir, operativ və elektron xidmətlərin tətbiqi ilə rahat çıxışını təmin etməkdir. Beləliklə, "DOST" hər bir vətəndaşın ən yaxın dostudur.

dövlət sosial xidmətlərinin vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir. Artıq bu təşəbbüsün müsbət nəticələri özünü göstərir. "DOST" Azərbaycan vətəndaşının arzuladığı və arzularının gerçəkləşdiyi bir ünvandır. O ünvan ki, hər bir insan oraya doğma evi kimi yaxınlaşır və oradan böyük məmnuniyyətlə ayrılır. Çünki onu maraqlandıran, sosial həyatına xidmət edəcək bütün sualların cavabı elə onun rifahına hesablanıb.



### Azərbaycanın siması kimi...

Bütün çıxışlarında siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayandığını vurğulayan dövlətimizin başçısının 20 ildən artıq fəaliyyəti dövründə uğurlu sosial siyasətinin əsasını Azərbaycan vətəndaşının rifah halının yaxşılaşdırılması, ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşdırılması təşkil edib. Sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsipinin qorunmasıdır. Prezident İlham Əliyev 2019-cu ilin may ayında DOST Agentliyinin 1 saylı "DOST" mərkəzinin açılış mərasimində demişdir: "Bizim siyasətimiz demək olar ki, DOST mərkəzində öz əksini tapır- islahat, innovasiya, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etdirilməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək.

DOST Agentliyi Birinci vitse-prezident Mehriban Əliyevanın

### Əhalinin həssas qrupunun sadiq "DOST"u

Ötən il iyunun 13-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan Bakıdakı DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyəti ilə tanış olarkən bu Azərbaycan brendi ilə daha bir qürur duyduq. Çünki Mehriban xanım Əliyevanın fəaliyyətində əhalinin həssas qrupu daim diqqətdə saxlanılır, onlara xüsusi qayğı göstərilir.

Həmin tədbirdə verilən məlumatlar da söylədiklərimizi bir daha təsdiq etdi: Mərkəzin əsas məqsədi həssas əhali qruplarından olan şəxslər, o cümlədən şəhid ailəsi üzvləri, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların övladları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, aztəminatlı ailələr və əlilliyi olan şəxslər sırasından istedadlı şəxslərin yaradıcılıq potensialının, digər bacarıqlarının ortaya çıxarılmasına və inkişafına kömək etmək, onlara sosial-psixoloji dəstək göstərməkdir. Təxminən ilyarım əvvəl yaradılan Mərkəzdə hazırda 14 istiqamət üzrə 180-dən çox benefisiar təlim alır.

Azərbaycan və Türkiyənin birinci xanımlarının Mərkəzdəki audio-səsyazma, floristika və landşaft dizaynı, metal və ağac üzərində oyma, xalçaçılıq, toxuma və tikmə, keramika, musiqi, təsviri sənət studiyalarında keçirilən təlimlərlə, o cümlədən kitabxana ilə tanış olmaları, Mərkəzin təlimçiləri və təlim alanlarının, inklüziv kamera orkestrinin ifasında musiqi nömrələrini dinləmələri, benefisiarların əl işlərindən ibarət sərgi ilə tanış olmaları və onlarla şəkil çəkdirmələri həssas qrupdan olan vətəndaşlarımıza göstərilən dövlət qayğısının növbəti təzahürü ilə yanaşı, "DOST"un sadiqliyini nümayiş etdirən amil idi.

### Sadiq və əsl dost kimi...

"DOST" mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 15 istiqamət üzrə 160 xidmətin "bir pəncərə"dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihələrdəndir. Bu, 6 il öncə "DOST" mərkəzlərinin ölkəmizin dövlət sosial xidmətləri sahəsində "ASAN xidmət"dən sonra Azərbaycanın yeni brendinə çevriləcəyini deməyə əsas verirdisə, bu gün tam əminliklə deyə bilərik ki, həqiqətən də belədir.

DOST Agentliyi mərkəzlər vasitəsilə "bir pəncərə" prinsipi ilə 2,8 milyondan çox şəxsə xidmət göstərmək imkanına malikdir. Xidmətlərdən vətəndaş məmnunluğu səviyyəsi 98,2 faiz təşkil edir. "DOST Çağrı Mərkəzi 142" tərəfindən isə ötən dövr ərzində 6 milyona yaxın vətəndaş müraciəti cavablandırılıb.

İndiyədək Bakı şəhəri, Abşeron və Bərdə rayonlarında olmaqla 7 DOST Mərkəzi, həmçinin Zəngilanın Ağalı kəndində "Smart DOST" xidmət məntəqəsi, Şuşa şəhərində isə Qarabağ Regional DOST Mərkəzinin filialı istifadəyə verilib. Hazırda Naxçıvan, Quba, Sabirabad, Sumqayıt, Gəncə və Masallıda DOST xidmətləri şəbəkəsinin qurulması üçün layihə, təmir-tikinti işləri aparılır. Ümumilikdə 17 yeni Regional DOST Mərkəzinin, 55 DOST filialının yaradılması nəzərdə tutulub ki, bu da ölkə vətəndaşlarının hər birinin "DOST"un xidmətlərindən istifadə etməklə sosial qayğılarının həll olunması deməkdir.

"DOST"un həmçinin köməkçiləri də var. DOST Agentliyi tərəfindən "Könüllü DOST" proqramı üzrə 3 altproqram "Gənc DOST", "Gümüşü DOST" və "Virtual DOST" altproqramları icra olunur. DOST könüllüləri DOST mərkəzlərində dövlət sosial xidmətlərinin "bir pəncərə"dən vətəndaş məmnunluğu prinsipi ilə təqdim edilməsi işlərinə öz töhfələrini verir. DOST Agentliyinin "Könüllü DOST" proqramı isə ölkəmizdə könüllülük hərəkatının genişlənməsində mühüm rola malikdir. Proqrama ötən dövrdə 120 minə yaxın müraciət olub və 5,2 mindən çox şəxs bu proqrama cəlb edilib. "Könüllü DOST" proqramı da bir sıra beynəlxalq mükafatlara layiq görülüb, həmçinin "Global HR Summit 2023" beynəlxalq müsabiqəsinin qalibi olub. Həyata keçirilən proqramlardan biri "Gənc DOST" altproqramıdır. Bu proqram 16 yaşından 29 yaşınadək olan gənclərin, o cümlədən əlilliyi olan şəxslərin vətəndaşlara xidmət sahəsində təcrübə qazanması, işgüzar vərdişlər əldə etməsi, fərdi inkişafı və karyera yolunda ilk uğurlu addımlarının təməlinin qoyulması məqsədi daşıyır. Könüllülərin iki aylıq fəaliyyəti qiymətləndirilərək onlara müxtəlif dərəcəli sertifikatlar təqdim olunur, fəaliyyəti yüksək qiymətləndirilən şəxslər üçün gələcəkdə DOST Agentliyi və DOST mərkəzlərində karyera qurmaq imkanı yaradılır.

Digər proqram "Gümüşü DOST" altproqramı pensiyaçıların cəmiyyətə reinteqrasiyası, nəsillərarası təcrübə və bilik mübadiləsi, yaşlı şəxslərin asudə vaxtının aktiv təşkili və fəal yaşlanması məqsədi daşıyır. "Virtual DOST" altproqramı çərçivəsində isə təhsil, təlim, tədqiqat, PR, konsaltinq və s. sahələr üzrə verilən tapşırıqların onlayn qaydada könüllülər tərəfindən yerinə yetirilməsi nəzərdə tutulur. Həmin altproqram əsasında müvafiq sahələr üzrə peşəkar mütəxəssislər, ictimai xadimlər, habelə əlilliyi olan şəxslər kompüter, planşet və ya smartfondan istifadə etməklə ofis və evlərində könüllü kimi fəaliyyət göstərmək imkanına malik olur, müxtəlif mikrolayihələr həyata keçirirlər.

DOST konsepsiyası beynəlxalq səviyyədə də yüksək qiymət alaraq müasir dünyanın sosial innovasiyalar sahəsində qabaqcıl təcrübələri sırasına daxil edilib. DOST Agentliyi ötən dövrdə 30-dan çox beynəlxalq mükafat və sertifikatla təltif olunub. Bu mükafatların sırasında Avropa Sosial Şəbəkəsinin, Beynəlxalq Sosial Təminat Assosiasiyasının, Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının və sair xüsusi mükafatları yer alır.

"Aİ Biznes Mühiti Hesabatı 2021"-də isə DOST mərkəzləri Azərbaycanın 3 təkmil islahatından biri kimi qiymətləndirilib. BMT tərəfindən "İnnovativ ictimai xidmət həlləri" statusunda tanınan DOST təcrübəsini öyrənərək tətbiq etməyə maraq göstərən ölkələrin sırası getdikcə genişlənir və bu sahədə həmin ölkələrlə təcrübə mübadiləsi aparılır.

Vətəndaşların rifah halının yaxşılaşdırılmasına xidmət edən və onların məmnunluğunu təmin edən DOST Agentliyi və "DOST" mərkəzi məmur özbaşınalığının, korrupsiyanın qarşısını alır, vətəndaşların vaxta qənaət etmələrini təmin edir. Bu layihədə reallaşdırılan könüllülər proqramı gələcəyimizi etibar edəcəyimiz gənclərin həyatda özlərinə yer tapmalarında, karyeralarını qurmalarında, layiqli vətəndaş kimi yetişmələrində önəmli rol oynayır. Beləliklə, "DOST"u həm köhnə dostlarına sadiq, həm də gənc dostlarını ətrafında birləşdirməklə onların gələcəyini təmin edən əsl dost adlandırmaq olar.

***Mətanət Məmmədova***

# Xəzəri belə görmək istərəm...

***Bu, lap çoxdankı arzumdur, Xəzərin sahilində gəzmək istərəm. O sahildə ki, Xəzərin suları ilə aramda hər hansı bir hasar, maneə olmasın. Kilometrlərlə uzansın bu sahil. Xəzərlə məni heç nə ayırmasın. Mən Xəzəri görüm, onun dalğalarını hiss edim. Sularının sahilə çırpılmasına tamaşa edim. Suların sahili yumasını, özütək pak etməyə mücadi-***

Nə qədər axtarıram, bu sahili tapa bilmirəm. Hara gedirəmsə, Xəzərlə aramda bir sədd, bir maneə var... Bəzən beton lövhələr, bəzən dəmir barmaqlıqlar... Sanki Xəzər cinayət törətmiş, dəmir barmaqlıqlar arasına salınmışdır. Sanki Xəzər o qədər qorxuncdur ki, beton lövhələrlə qarşısı alınmış, insanlara təhlükə yaratmaması üçün ciddi tədbir görülmüşdür. Xəzər sahilində gəzmək istərəm... Onun neft qoxusu verən sularının ətrini ciyərimə çəkmək istərəm. Bizdən küsüb metrlərlə məsafədə geri çəkilən sularının ətrini...

Sahilində gəzmək, insanların heç olmasa bircə dəfə ona xoş münasibətinin şahidi olmaq istərəm. İstərəm ki, Xəzəri çirkabsız, təmiz görəm. İstərəm ki, onun qumlu sahillərində-çimərlikləri zəbt edən onlarla obyektlərin tək bir gün o sahilləri tərk etdiyini görə biləm. Xəzərin əsl bir dəniz olduğunu, sahillərinin özünə və hər kəsə eyni dərəcədə məxsus olduğunu bircə dəfə görmək istəyirəm...

Görmək istəyərəm ki, hər kəs bu geniş və gözəl sahildə xoşbəxtcəsinə gəzişir. Uşaqların əlindən tutmuş atalar, analar, babalar, nənələr... Yaşlı insanlar... Xəzərin əhd-peymanlığın şahidi olan dalğalarının gənc sevgililərin ayaqlarına çırpıldığını görmək istəyərəm. Tək bircə metrlik boş Xəzər sahili görmək istəyərəm ki, insan yorğunluq hiss edəndə, hər hansı bir problemlə bağlı bağrı çatlamaq üzrə olanda ona pənah aparsın, dalğalarla, sularla dərdini bölüşə bilsin...

Dünyanın ən gözəl dənizi, Xəzər... Sərvət ətirli, qara qızıl qoxulu doğma Xəzər. Bəzən "nə var o neft qoxuyan sahillərdə",- deyənlər də var... Lakin bunu söyləmək böyük qəbahət və günahdır. Tanrının bizə ərməğanına üz çevirməkdir.

Üç gün sonra- 12 avqust Xəzər Dənizinin Ətraf Mühitinin Mühafizəsi Günüdür. 2006-cı ilin məhz bu günündə Xəzər dənizinin ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyasının qüvvəyə minməsindən sonra hər il avqustun 12-si Xəzər Günü kimi



qeyd olunur. Xəzərin günündə onun açıq sahillərində gəzmək, göz yaşı kimi dumduru sularının pıçıltısını dinləmək, dalğalarının zümzüməsinə qulaq asmaq istəyərəm. Bu suların qoyun açdığı minlərlə canlının təhlükəsiz həyatını seyr etmək, onların qorxusuz, heç nədən çəkinmədən atılıb-düşməsinə tamaşa etmək istəyərəm. İstəyərəm ki, burada bircə canlı belə bizim kobudluğumuz, onlar üçün yaratdığımız təhlükələr üzərindən həyatını itirməsin. İstəmərəm ki, onun möhtəşəm, lakin biz insanların bir qarışını belə boş qoymadığımız sahilində istirahət edərkən bir ədəd butulkanı, sellofan paketi əlimizdən yerə tullamayaq. Və bu dənizə heç kim heç nə axıtmasın. Axı bu tullantılar, axıntılar mavigözlü Xəzərin büllur sularının göz yaşı rəngində olmasına əngəl yaradır. Onun dalğalarında görünən tullantılar bu gözəlliyin üzərindən xətt çəkir. Bu tullantılar Xəzərin çoxsaylı canlı aləminin məhv olmasına, onların kökünün kəsilməsinə səbəb yaradır...

Bütün bu səbəblərdən də Xəzəri tərtəmiz görmək istəyərəm. Qoy o, gözəlliyi ilə valeh etsin. Qoy ağuşuna aldığı canlıların evini tərtəmiz görsün. Axı bu Xəzərin də, onun canlılarının da haqqıdır.

Bəzən Xəzərə yaxın ərazidən avtomobillə ötəndə nə qədər boylanırsan ki, dənizi görəsən, lakin görə bilmirsən. Bax, bu dənizə yaxın yollardan Xəzəri görmək istərəm. Xəzərin qarşısını kəsən çoxsaylı binalar, obyektlər, tikililər nə üçün onu görünməyə qoymamlıdır axı? Bina tikmək üçün yer tapılmırdı məgər bu böyüklükdə şəhərdə?..

Hansından danışasan, hansını deyəsən ki, Xəzərin xilasına bir damla kömək gücündə ola bilsin?..

* * *

Avropa və Asiyanın kəsişməsində yerləşən, Yer kürəsinin ən böyük axmayan gölündən, dibində okean tipli yer qatı yerləşdiyinə və dəniz ölçülərinə malik olduğuna görə dəniz adlanan, dünyanın okeana çıxışı olmayan ən böyük su hövzəsindən və dünya göl sularının 44%-ni təşkil edən Xəzərdən, bu dənizdə görmək istədiklərimdən danışdım.

Uzunluğu təqribən 1200 km, maksimal eni 466 km, minimum eni isə 204 km, sahil xəttinin uzunluğu təqribən 6380 km olan Xəzər dənizindən danışdım. Və əsas məsələ, Xəzərin 825 km-i ölkəmizin payına düşür. Bax, söhbətimin məğzi məhz elə bu 825 kilometr idi. Burada görmək istədiklərimi sadaladım. Bu qədər uzun məsafədə Xəzəri görünməz edənlərdən, sahili oğurlanan Xəzərdən söhbət açdım.

Kaş ki, nə vaxtsa Xəzərin sahillərini təmizlənmiş, əsl dəniz sahili necə olarsa, elə görə biləк. Bu dənizin özünü də, sahilini də zəbt edən insanların əslində ona nə qədər yaxınlaşa bilməsini bilincəyə qədər Xəzərdən danışmaq istərəm.

* * *

Hə, az qala unutmuşdum. Həm də başqa dənizlərin sahilində gəzərkən Xəzərin sahilləri daha qəribə, daha dözülməz gəlir insana. Məsələn, Qara dənizin sahillərində gəzərkən Xəzəri düşünürdüm, ona acıyır, halına kədərlənirdim. Qara dənizin əhatə etdiyi şəhərdən avtomobillə keçərkən buradan açıq-aydın görünən dənizi seyr edərkən Xəzəri daha çox düşünürdüm. Onun suları ilə mavi səmanın bir-birinə təmasını heyranlıqla izləyəndə, Xəzəri də bir gün belə izləməyi həm düşünür, həm arzulayırdım.

Qara dənizin beton maneəsiz, dəmir barmaqlıqsız sahillərində gəzərkən "Xəzərin bundan nəyi əskikdir",- deyə düşünürdüm. Dalğaları sahilə çırpdıqca, Xəzər də dalğalı bir dənizdir, deyirdim. Lakin onun dalğalarının nə üçün sahildə bizə deyil, betonlara çırpıldığını da kədərlə düşünürdüm. Xəzərin Qara dənizdən nəyi əskikdir ki?.. Nə üçün onun nəsibi olanlar Xəzərin də nəsibi deyil? Axı Xəzər gözəllikdə ondan geri qalmır, sərvətdə isə ondan üstündür...

Gözəl Xəzər, səndə görmək arzusunda olduqlarımı görmək diləyi ilə, salamat qal. Görmək istədiklərimizi bir gün görmək ümidi ilə...

***Mətanət Məmmədova***

# Netenyahu Baydenin təklifi ilə razılaşacaq?

## BİR GÜNLÜK ATƏŞKƏS

İsrail əsir mübadiləsi və atəşkəs razılaşmasını müzakirə etmək üçün avqustun 15-də Qəzza zolağına danışıqlar qrupu göndərəcəyini açıqladı. SİA xarici mətbuata istinadən xəbər verir ki, İsrail Baş Nazirlik ofisindən verilən açıqlamada belə deyilir: "ABŞ və vasitəçilərin təklifi ilə İsrail danışıqlar qrupunu avqustun 15-də həyata keçirmə ilə bağlı təfərrüatları yekunlaşdırmaq üçün daha sonra təyin olunacaq yerə göndərəcək. Daha sonra əsirlərin dəyişdirilməsi prosesi başlanacaq".

Digər tərəfdən, HƏMAS hələ də İsrailin açıqlaması ilə bağlı münasibət bildirməyib. Yaxınları Qəzzada əsirlikdə olan israillilər İsrailin baş naziri Binyamin Netanyahudan gələn həftə keçirilməsi planlaşdırılan Qəzzada atəşkəs və məhbus mübadiləsi razılaşması üçün "liderlik nümayiş etdirməyə" çağırıblar. X sosial media platformasında israilli məhbusların ailələri tərəfindən verilən açıqlamada vasitəçilik təşəbbüslərinə görə ABŞ, Misir və Qətər liderlərinə təşəkkür edib və dəstək mesajı veriblər.

Bəyanatda İsrail hökumətindən və Netanyahudan məhbus mübadiləsi müqaviləsində çatışmayan detalların tamamlaması istənilib. ABŞ, Misir və Qətərin birgə bəyanatında Qəzza zolağında atəşkəsin təmin edilməsi və əsirlərin dəyişdirilməsi üçün avqustun 15-də Qahirə və ya Dohada danışıqlara yenidən başlamaq çağırışı edilib.

Birgə bəyanat ABŞ prezidenti Co Bayden, Misir prezidenti Əbdül Fəttah əs-Sisi və Qətər əmiri Şeyx Təmim bin Hamed Al Taninin



imzaları ilə təsdiqlənib.

Danışıq qrupunun geri dönməsinin səbəblərindən birinin Netanyahu ilə ordu arasında əsir mübadiləsi danışıqlarında fikir ayrılığının olduğu bildirildi, lakin bu barədə ətraflı məlumat verilmədi.

ABŞ prezidenti Bayden mayın 31-də İsrailin üç mərhələdən ibarət yeni atəşkəs təklifi təqdim etdiyini açıqlayıb. Bayden bu təklifin İsrailə aid olduğunu desə də, Netanyahu "müəyyən edilmiş hədəflərə çatana qədər" Qəzzada hücumlarını davam etdirəcəklərini bildirib. Netanyahu iyunun 3-də Parlamentin Xarici Əlaqələr və Müdafiə Komitəsində etdiyi çıxışında İsrailin təklifi ilə Baydenin təklifi arasında "boşluqlar" olduğunu iddia edib.

***Qönçə Quliyeva***



GÜNÜN SUALI

# Avropa Komissiyası Orbandan nə istəyir?

***Macarıstan Avropa Komissiyasının Viktor Orban hökumətinin Rusiya və Belarus vətəndaşlığı olanlara yaşayış icazələrinin verilməsini sadələşdirməsi ilə bağlı irəli sürdüyü iddialara cavab hazırlayır. Ölkənin Xarici İşlər Nazirliyi yəqin ki, gələn həftə öz izahatlarını Brüsselə göndərəcək. Onlar çətin ki, Aİ rəhbərliyini qane etsin. Onun Orbanla Rusiya Federasiyasına və Rusiya-Ukrayna münaqişəsinə fərqli münasibətlə bağlı fikir ayrılıqları ciddi olaraq qalacaq. Bəlkə də Kursk vilayətində baş verən hadisələr onları daha da artıracaq.***

Avropa Komissiyasının Macarıstan hökumətindən hərəkətlərinin Şengen Sazişinin altıncı maddəsi ilə ("Üçüncü ölkələrin vətəndaşlarının giriş şərtləri") necə əlaqəli olduğunu izah etməyi tələb etdiyi məktub avqustun 1-də göndərilib. Onun müəllifi daxili işlər üzrə Avropa komissarı Ylva Johanssondur. Avropa Komissiyasının sözçüsü Anita Hipperin izah etdiyi kimi, məktubda cavabın alınmalı olduğu "son tarix" adlandırdığı vaxt göstərilir: 19 avqust. Cavab olmasa, bu, Aİ rəhbərliyinin Macarıstana qarşı iddialar toplusuna daha bir əlavə olacaq. İddialar konkret hərəkətlərlə nəticələnə bilər: cərimələr və məhkəmə iddiaları. Avropa Parlamentinin bəzi üzvləri daha radikal hərəkət etməyi təklif edirlər. Litvanın nümayəndəsi, Avropa Parlamentinin deputatı Petras Austravicius Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyenə məktub yazaraq, təkcə Macarıstan hökumətinin qərarı ilə bağlı araşdırma aparmağı təklif edib. Orada deyilir ki, "digər Şengen ölkələri Macarıstanın Rusiya və Belarus vətəndaşlarına verdiyi vizaları tanımamaq hüququna malikdir". Əslində bu, ölkəni Şengendən çıxarmaq üçün təhlükədir. Məktubu Avropa Parlamentinin 720 üzvündən təxminən 70-i imzalayıb. Çox deyil, amma o qədər də az deyil ki, onların fikrinə məhəl qoyulmasın.

Orbanın tənqidçilərini tam olaraq nə qəzəbləndirir? Bu həm onun özüdür, həm də hansı şəraitdə qərar verir. İyulun 1-də Macarıstan Aİ-yə sədrlik edən ölkə oldu. Orbanın sözün əsl mənasında bu yeni vəzifədə etdiyi ilk xarici siyasət səfərləri Kiyev və Moskvaya oldu. O, avqustun 5-də Rusiya paytaxtına səfər edib. Artıq avqustun 8-də rəsmi hökumət nəşri olan Macarıstan bülleteni "Vətəndaşları Milli Kartdan istifadə etməklə işlə təmin oluna bilən Avropa İttifaqına daxil olmayan ölkələrin siyahısının müəyyən edilməsi haqqında" qərar dərc edib. Bu ölkələrin cəmi səkkizi var: Bosniya və Herseqovina, Şimali Makedoniya, Moldova, Monteneqro, Serbiya, Ukrayna, Belarusiya və Rusiya Federasiyası.

Bu, 2024-cü ilin əvvəlində ortaya çıxan xüsusi proqrama aiddir. Milli kart (macar dilində nemzeti kbrtya) sadələşdirilmiş qaydada verilən xüsusi yaşayış icazəsidir və iki il müddətində etibarlıdır. İstənilən Macarıstan şirkəti tərəfindən işə götürülənlər buna arxalana bilərlər. Kvalifikasiyaların əhəmiyyəti yoxdur. Bu növ yaşayış icazəsinin özəlliyi ondan ibarətdir ki, onu əldə etmək üçün heç bir xüsusi əmək bacarığına ehtiyac yoxdur. Ölkəyə gəldikdən sonra Milli Kart sahibi həm işəgötürənini dəyişmək, həm də iki illik müddətdən sonra onun etibarlılığını daha üç il müddətinə uzatmaq hüququna malikdir. Beş ildən sonra daimi yaşayış icazəsi üçün müraciət edə bilərsiniz. Macarıstan hakimiyyəti üçün eşidilməmiş səxavət. İllərdir ki, bu ölkə miqrasiya siyasətinin ən az liberal olduğu Aİ üzvlərindən biridir. Hökumətdə prioritetlərin dəyişdirilməsi zərurəti Macarıstanda əsl problem olan ixtisassız işçi qüvvəsinin kəskin çatışmazlığı ilə izah edildi.

Rusiya vətəndaşlarının Milli Kart proqramına daxil edilməsi həm də Rusiya-Macarıstanın birgə layihəsi olan "Paks-2" AES-in yaxında başa çatması ilə əsaslandırıldı. Orbanın tənqidçiləri bunu çox da bəyənmirlər. Austrevicius Şengen ölkəsində hər hansı bir yaşayış icazəsinin onun sahibinin bütün Şengen ölkələrində sərbəst hərəkətini nəzərdə tutduğuna diqqət çəkib. Bu o deməkdir ki, hələ də bütün lazımi yoxlamalardan keçməmiş Rusiya vətəndaşlarının Avropanı maneəsiz gəzmələri ehtimalı var. Bu, bütün mümkün tələblərin, o cümlədən Aİ ölkələrində ruslar və belaruslar üçün viza tələblərinin sərtləşdirilməsi fonunda baş verir. Cümə axşamı, avqustun 8-də Finlandiyanın xarici işlər naziri Elina Valtonen Rusiya sərhədindəki keçid məntəqələrinin yaxın vaxtlarda açılmayacağını açıqlayıb. Estoniya-Rusiya sərhədindən keçən bütün Rusiya vətəndaşlarının şəxsi əmlakının hərtərəfli yoxlanılması qaydasını tətbiq edir. Bunun fonunda Macarıstanın viza liberalizmi Aİ-də çoxlarını qıcıqlandırır.

Macarıstanın baş naziri də öz növbəsində Rusiya-Ukrayna münaqişəsi ilə bağlı kursunun Avropa İttifaqında dəstək tapmamasından qıcıqlanır. Ola bilsin ki, Slovakiya rəhbərliyi Orbanın fikirlərini qismən bölüşür. Bununla belə, yaxın günlərdə Ukrayna məsələsində Macarıstan-Slovakiya qeyri-rəsmi ittifaqı sınaqdan keçiriləcək. Döyüşlər Kursk vilayətində, Rusiya qazının Slovakiya və Macarıstana axdığı Sudja qazölçmə stansiyasının yaxınlığında gedir. Orban həmişə Rusiya Federasiyasından ölkəsinə qaz nəqlinə müdaxilə cəhdlərinə qarşı son dərəcə kəskin çıxış edib. İndi Macarıstan hökuməti Kursk vilayətindən gələn xəbərləri şərh etməməyə üstünlük verir. Digər Aİ ölkələrində fərqli fəaliyyət göstərirlər. Belə ki, Bundestaqın Müdafiə Komitəsinin sədri Markus Faber ölkəsinin bu cənətdə alman silahlarından istifadəni dəstəklədiyini bildirib. Bütün bunlar təbii ki, Aİ rəhbərliyi ilə Macarıstan arasında yeni gərginlik yarada bilər.

**AYSEL**



Lalə Mehralı

# İt kimi darıxmaq

***İfadə necə yaranıb, necə yayılıb, itin darıxmaqlığı necə olur, bilmirik. Bəlkə də bilirik, elə ona görə darıxanda "it kimi darıxdım" deyirik. Elliklə çox işlətdiyimiz bənzətmədir "it kimi darıxmaq". Biri üçün darıxmaq, bir yer üçün darıxmaq, bir şey üçün darıxmaq – bütün hallarda hamısı eyni hissi ifadə edir – həsrəti. Darıxmaq mənəvi-ruhi hissiyyatdır, amma bundan bədən də zərər görür. Həsrət çəkmək iştahı kəsirsə, dərd çəkdirirsə, ümidsizlik verirsə buna görə tək ruhumuz yox, bədənimiz də xəstələnir. İtirdiyin şeylərə, ayrıldığın məkanlara, küsdüyün insanlara qarşı hiss etdiyin boşluq, ümidsizlik, kədər, yalnızlıq duyğusu əvvəl ruhu xəstələndirir, sonra bədəni.***

Geri qayıtmayacağını bildiyin insanlardan ötrü darıxmaq isə bir başqa əzabdır. İtirdiklərimiz bir də geri qayıtmayacaq, ölənlərimiz dirilməyəcək, gedənlərimiz gəlməyəcək. Həyat qəfil hadisələrə hamilədir, hər an yeni nəsə baş verir. Bir gün var olan bir gün yoxdur, dünən deyə-gülə ayrıldığımız əzizimizi sabah görməyə bilirik. Həyatdan köçməsi ilə barışmadığımız, yoxluğuna alışmadığımız insanlara qarşı hiss etdiyimiz ən təbii duyğudur darıxmaq. Burnumuzun ucu göynəyir adı çəkiləndə, yadımızdan çıxanda. Onu xatırladan hər şey əziz olur bizə - bir kitabı, bir geyimi, bir mesajı. Hər xatırlatma darıxmaqdır, hər xatirə həsrətdir.

Xatırlayıram, oğlum körpə idi, hələ 1-1.5 yaşında olardı. Yay tətilində onu rayona aparmışdım, atası isə işlədiyi üçün paytaxtda qalmışdı. 1 ay atasını görmədi, o zamanlar internet imkanları, görüntülü danışıq vasitələri indiki kimi əlçatan deyildi, kəndlərdə internet təchizatı yox dərəcəsində idi. Təxminən 15 il əvvəldən danışıram. Sağlam uşaq gündən günə soldu, saraldı, iştahdan kəsildi, süst düşdü. Həkimə apardım, Bakıdakı həkimi ilə danışdım, heç bir diaqnoz qoyulmadı. Amma uşaq günü-gündən pisləşirdi. Onda nənəm sağ idi, hər gün uşağa baxır, sığallayır-tumarlayır, "könül xəstəliyinə tutulub" deyirdi. Nə olduğunu bilmirdim, tibbdə elə xəstəlik yoxdur, biz yeni nəsil də tibbin təsdiqləmədiyini ciddiyə almırıq axı.

Nənəm hər gün "atasına deyin gəlsin, uşaq ona görə belədir" deyirdi. Uşaq yaxşılaşmadı, atası gəldi. Günlərdir süst düşən, yeməyən, su belə içməyən, danışmayan, gülməyən uşaq gözümüzün önündə 5 dəqiqədə sağaldı. Gözlərimizə inanmadıq, hansı həkimə dedimsə o da inanmadı. Uşağın xəstəliyinin səbəbi darıxmaq imiş, atasını görəndə darıxmağı keçdiyi üçün səhhəti də düzəldi. Nənəmin dediyi "könül xəstəliyi" də eyni şey imiş. İnanmaq nə qədər çətin olsa da, bu, baş verdi.

Darıxmaq hissi çox formada təzahür edir bədənimizdə - ürəyimiz ağrıyır, iztirab çəkirik, canımız sıxılır, təngənəfəs oluruq, boğuluruq, havasız hiss edirik. Bu, ruhumuzun yaşadığı bir hissə bədənimizin reaksiyasıdır. Əzizimizdən uzaqda olanda onun üçün burnumuzun ucu göynəyir, sevgimizi itirəndə onun üçün iztirab çəkirik, vətəndən kənarda olanda vətən həsrəti çəkirik – hamısında da darıxırıq. O qədər şiddətli darıxırıq ki, elə özümüz itin darıxmağı kimi ifadə edirik bu hissin şiddətini. Yəqin ki, adam kimi darıxmaqla it kimi darıxmağın arasında bir fərq olmalıdır, yoxsa niyə bütün şairlər darıxmağın şiddətini onunla ifadə etsin ki?!

Necə deyir şair Şəhriyar?

"...sən axı bilmirsən<br>hardan biləsən?<br>üzünnən iraq –<br>it kimi darıxmaq nə təhər olur..."

# Bu zalım dünyada doğulma...

*Həyat mübarizədən ibarətdir. Mübarizənin isə bitib tükənməz formaları, metodları, tərəfləri var. Özünlə mübarizə, düşmənlə mübarizə, təbiətlə mübarizə, yaşamaq uğrunda mübarizə, güclü olmaq uğrunda mübarizə, xəstəliklə mübarizə, pisliklərlə mübarizə, nəfsinlə mübarizə...*



Yaradılış əzəldən dialektik sistemdə qurulub: xeyirlə şərin, yaxşı ilə pisin, güclü ilə zəifin mübarizəsi üzərində. Həyat da buna görə mövcuddur. Həyatın mühərriki də budur. Əks halda, yaşamaq eşqi olmaz, bəşəriyyətlə robot kütləsinin heç bir fərqi olmazdı.

Hərdən şikayətlənirik ki, çox pis dünyada doğulmuşuq, çox pis zamanda yaşayırıq, çox çətin şərtlərdə mübarizə aparırıq. Bəli, bu, belədir. Bura cənnət planeti deyil və heç kim də bizə burada kef edəcəyimiz haqda söz verməyib. Dünyamızı da, mühitimizi də, zamanımızı da biz seçmirik deyə bilirik. Amma bu tam tərsinədir. Karma qanununa görə məhz biz seçirik. İnsan həyatı birdəfəlik deyil, kainatdakı hər şey kimi əbədidir. Enerjinin dəyişilməsi qanunu. Kainatda hər şey enerjidir. Enerji isə, artmır, azalmır, yox olmur. Sadəcə formasını dəyişir.

Maddi olan hər şey müvəqqətidir, ruhi olan isə əbədi. Beləliklə, biz əbədi və ruhi kainatdan kənar düşdükdən sonra bu maddi dünyada çox həyatlar yaşaya bilərik. Maddi dünyadan qurtuluş var- bunun üçün tam kamilləşməli və yüksək insani mərhələyə keçməliyik ki, geri- öz əbədi evimizə qayıda bilək. Əks halda, bu maddi dünyaya hələ çox gəlib gedəcəyik. Bu dünyadakı həyatın məqsədi təcrübə keçmək və imtahandan keçdikdə ali məskənə qəbul olmaqdır. Bu dünyada təhsil sistemi necədirsə, elə. Topladığın bala uyğun yer alırsan. Necə deyərlər, yuxarıda necədirsə, aşağıda da eləcə. Yəni, bu həyat sadəcə məktəbdir. Amma bu məktəbin konkret məcburi müddəti yoxdur. Müddəti biz təyin edirik. Biz öyrənənək dərs davam edəcək.

Deyilir ki, dünya zalımdır və hamıya qarşı ədalətli deyil. Amma ədalət də nisbi məvhumdur və bizim anlayışlarımıza tabe deyil. Bəzən bizim ədalətsiz saydığımız şeylər tam ədalətlidir. Nəyə layiqiksə, onu da alırıq. Nəyi əkmişiksə, onu da biçirik. Bu dünyada yox ha.. Çox vaxt əvvəlki həyatlarımızda əkdiyimizi bu həyatda biçirik, orada qazandığımız həyatı burada yaşayırıq və bu həyatda da növbəti həyatımızı müəyyənləşdiririk. Karma qanunu ədalət üzərində qurulub və məntiqlidir.

Təsəvvür edin, belə bir amansız dünyada, yaşamaq uğrunda mübarizənin getdiyi bir dünyada insanlığını qorumaq, kamilləşmək, müdrik olmaq nə qədər çətindir. Və bu imtahandan keçənlər yüksək məqamlara layiqdirlər və əbədi dünyaya qayıdacaqlar. Keçə bilməyənlər növbəti dəfə daha ağır şəraitdə bu məktəbi bitirməyə çalışacaqlar. Biz burada insan olaraq doğuluruq ki, kamilləşib Adam olaq.



Amma görünən odur ki, hələ həyatın mənasını dərk etməmişik. Dünyamızı, öz evimizi dağıdırıq, məhv edirik. Təbiətə zərər vuran, onu məhv edən yeganə canlı bizik. Hər cür pisliklər, dəhşətlər, faciələr yaradırıq, yaşadırıq, yaşayırıq. Lakin yaxşı işlərimiz də var. Fədakar insanlar var, dünyanı gözəlləşdirməyə çalışanlar var, başqalarını xilas etməyə cəhd edənlər var, bəşəriyyət uğrunda canını qurban edənlər var...

Ona görə də, hər pis şeydə günahı Yaradanda axtarmaq əvəzinə özümüzdə axtarmalıyıq. Bizi sadəcə, bütün yaxşı və pis şeylərlə təchiz ediblər. Nəyi harda necə istifadə edəcəyimizə özümüz qərar veririk. Əgər kimlərsə dünyada faciələr törədirsə, bunun günahı da bizdədir, biz ağıllı olsaq, məsələn, 8 və ya 80 insan 8 milyard insana hökm edə bilməz.

Dünyada yaxşıları da, pisləri də görmək lazımdır. Əsl seçim onda olur. Nəyi seçiriksə, onu da yaşayırıq bəşəriyyət olaraq. Bura cəzalanmışlar üçün cərimə batalyonudur, çətin tərbiyə olunan uşaqlar üçün məktəbdir. Biz bu həyatı özümüz qazanmışıq keçən həyatlarımızda. İndi səhvimizi düzəltmək üçün daha bir imkan verilib.

Bu həyatda nələr gördük, nələr eşitdik, nələr yaşadıq? Hamısı bir təcrübədir, bir dərsdir, bir nəticədir, bir bilikdir. Təsəvvür edin, çoxu biorobotlar olan mələklər və digər yüksək varlıqlar bunları yaşaya bilərmi? Əlbəttə ki, xeyr. Ona görə, Yaradan insanı kosmik ictimaiyyət qarşısında təqdim edəndə, "onu hamınızdan üstün yaratmışam, özümdə olan xüsusiyyətlərdən vermişəm və ən əsası ona mütləq azadlıq vermişəm, o fərqli varlıqdır və analoqu yoxdur" demişdi. Bəziləri insanın üstünlüyünə şübhə edərək, onun mənfi xüsusiyyətlərini önə çəkərək, dünyada onun nifaq salacağı, qan tökəcəyini deyəndə, Uca Yaradan onlara demişdi- Mən bildiyimi siz bilmirsiniz!

Bəli, Tanrının bildiyini biz bilmirik və bilə bilmərik də. Lakin bizə çox şeyi öyrənib bilmək, dərk etmək imkanı verilib. Beynimiz kainata bənzər və onun gücündə yaradılıb. Biz necə istifadə edirik, artıq bu qərar özümüzə məxsusdur. Tanrı buna müdaxilə etmir. Müdaxilə etsə ədalətsiz olmuş olardı. Qanunları qoyub və çəkilib kənara. Sadəcə müşahidə edir. Onun üçün insanın özünün öz gücü ilə, öz sevgisi ilə uca mərtəbəyə yüksəlməsi özünün şah əsərinin təntənəsi olacaq. Bu mövzuda bundan böyük nə həzz ola bilər Yaradan üçün?



Bəzən deyirlər, taleyim belədir, qismətim belədir. Xeyr, elə deyil. Tale və qismət adlı bir şey yoxdur. Alnımıza da heç nə yazılmayıb ki, filankəs belə olacaq, filankəs elə. Elə olsa, biz proqramlaşdırılmış robot olardıq, amma bizi azad varlıq yaradıb. Qərarları ya bu həyatımızda veririk, ya da keçmiş həyatımızda verdiyimizin nəticəsini alırıq. Əlbəttə, keçmiş həyatdakı pis karmanı bu həyatda yaxşıya dəyişmək imkanı həmişə saxlanır, eləcə də əksinə. Hər şey bizdən asılıdır.

Bu mübarizəni aparmalıyıq, döyüşərək, vuruşaraq. Əlbəttə ki, şərlə. Döyüşməmək təslim olmaq isə öz seçimimizdir. Nəfsimizə qalib gələ bilməmək də öz seçimimizdir. Yaradan xeyiri şərdən güclü yaradıb, biz təslim olmadıqca şər bizə qalib gələ bilməz. Ağlımız hisslərimizdən güclü yaradılıb. Ağlımızı işlədəndə hisslərimizin tələsinə düşmərik. Lakin bu o demək deyil ki, hisslərimiz hamısı lazımsızdır və zərərlidir. Hisslər də 2 qrupa bölünür, müsbət hisslər, mənfi hisslər. Və ruhumuz bu enerjilərin mübarizəsində son qərarı ağılın köməyi ilə verir.

Hisslərimiz ağılla, müsbət enerji ilə dolu olanda məğlubedilməz olur. Kainatda ən güclü enerji Sevgidir. Tanrının özündən belə güclü yaratdığı enerji. Yalnız Sevgi qarşısında Uca Yaradan acizdir. Biz bunu unudanda adamlıqdan çıxırıq və adi ət sümük kütləsinə (insana) çevrilirik.

İndi baxaq, biz hazırda maddi kainatdayıq, burada hər şey müvəqqətidir, biz burada yaşlanırıq, xəstələnirik, ölürük, hər şey zamana tabedir. Bu şəraitdə yaşamaq əlbəttə, çətindir. Lakin kainatın qanunları belədir, yaxşı şeylər asan əldə olunmur, müftə verilmir, ona layiq olmalısan, onu qazanmalısan. Doğrudur, döyüşlər, mübarizələr bərabər şərtlərdə, bərabər imkanlarda getmir. Lakin nəyin nədən üstün olduğunu biz hardan bilə bilərik? Bizim böyük və güclü saydığımız çox şey Tanrı üçün yox kimi bir şeydir, bizim zəif və güclü saydığımız çox şeylər isə Tanrının gözündə ən böyük mərtəbədir. Qısa misalla desək, başqaları üçün gücü çatanın 50 faizini edənlə, 5 faizini edən arasında yerlə göy qədər fərq var. Əlbəttə, 5 faiz edənin sərf etdiyi zəhmət, sərvət və s. 50 faiz edəndən çox ola bilər. Lakin burada maddi üstünlük yox, mənəvi üstünlük əsasdır. Kobud misalla desək, 3 çörəyi olan birinin bir aca 1 çörək verməsi, 100 çörəyi olan birinin 10 çörək verməsindən üstündür. Bax dünyamızın qanunları bu sistem üzərində qurulub. Eynşteynin dediyi kimi, hər şey nisbidir. Mütləq olan yalnız Tanrı özüdür.



Xülasə, bu zalım dünyada ədalət də var, ədalətsizlik də. Xeyir də var, şər də. İşıq da var, qaranlıq da. Cahillik də var, kamillik də. Baxır biz hansına yönəlirik. Bəli, müdrik olmaq çətindir, burada hətta ölüm qorxusu da var. Lakin ölüm deyə bir şeyin olmadığını artıq elm də qəbul edir. Metafizika deyir ki, enerji itmir, insan öldükdən osnra belə ondan enerji şəklində informasiya bazası köçürülür.

Deməli, doğru yoldayıqsa, bu dünyada heç nədən qorxmağa dəyməz. Ölüm dediyimiz sadəcə maddi bədəni, yəni növbəti paltarı tərk etməkdir. Ya maddi dünyadan birdəfəlik qurtuluruq, ya da ən pis halda növbəti dəfə başqa bədəndə bu dünyaya peyda olacağıq. Bütün həyatlarımız əbədi informasiya bazasında toplanır. Biz bu dünyaya gələndə əbədi yaddaş bağlanır və cari yaddaş açılır. "Ölüm" zamanı əbədi yaddaş yenidən yüklənir və sən bütün həyatlarını son saniyəsinədək xatırlayırsan.

Ölümün yeganə ağrılı məqamı sevdiklərindən müvəqqəti ayrılmaqdır. Amma yaradılış sevgi enerji üzərində bərqərar edildiyindən (və enerji madə olamdığına görə heç vaxt yox olmadığından) ola bilməz ki, sevdiklərindən əbədi ayrılasan. Cəzan varsa, müvəqqəti ayrılacaqsan. Qovuşmaq üçün imkanların həmişə qalır.

Zamanın nisbi olduğu, keçmiş, indi və gələcəyin eyni vaxtda paralel olaraq mövcud olduğu bir sistemdə zaman haqda danışmaq çətindir. Maddi həyatda bizə uzun və bitməz gələn 100 illik müddət əslində bir an belə deyil. Əslində, qorxulu heç nə yoxdur. Hər şeyi bir anda dəyişmək öz əlimizdədir. Ruhumuzu bu maddi dünyadan xilas etmək üçün imkanımız var.

Beləliklə, aydın olur ki, bizim bu dünyadakı həyatımız müasir elmi-texnoloji dillə desək bir simulyasiyadır, biz maddi dünya adlandırılan matriksdə yaşayırıq. Matriksdən çıxmaq üçün yeganə yol var- kamilləşmək, sevgi ilə dolu olmaq, fövqəlinsan (adam) mərtəbəsinə yüksəlmək.

Buradakı həyatımız son dərəcə zəngin, son dərəcə keşməkeşli, son dərəcə maraqlı, son dərəcə əzablı,son dərəcə sevincli, son dərəcə kədərli hisslərlə aparılan mübarizədə keçir. Müdriklər deyir ki, bu dünyada yaşamağın yerini heç nə verə bilməz. Dinlərdə və mifologiyada qeyd olunur ki, bir çox yüksək varlıqlar insan kimi doğulmağı arzulayırlar. Çünki onlar müəyyən çərçivələr daxilində mövcuddurlar, insan isə kainatda mövcud olan və mümkün olan hər şeylə təchiz edilib, əhatə olunub. Ona Yaradan tərəfindən müstəsna hüquqlar tanınmışdır.

Bu dünya həyatı çox ziddiyyətlidir. Burada sevinci yaşamaq var, kədəri yaşamaq var, ağlamaq var, gülmək var, sarsılmaq var, ucalmaq var, sevmək var, nifrət etmək var, döyüşmək var, təslim olmaq var, qələbə qazanmaq var, məğlub olmaq var, xəyanətə uğramaq var, fədakarlıq var, mərhəmət var, zalımlıq var, ac qalmaq var, dözmək var, səbr etmək var, hər şeyi itirmək var, hər şeyə sahib olmaq var... hər cür hisslər var, duyğular var... var ki, var. Yox yoxdur. Yox olan yeganə şey ölümdür- ölüm yoxdur.

İndi siz deyin, həddən artıq maraqlı olan bu "zalım" dünyada doğulmağa dəyərmi? Heç olmasa bir dəfə...

***Elçin Bayramlı***

# Tezbazar isitmə, yoxsa tezbazar öldürmə?

*Yeməyin sürətli qızdırılması insanın tədricən öldürülməsinə xidmət edir*



***Mətbəxlərimizi bəzəyən, restoran və kafelərdə 2 dəqiqə içində isidilərək bizə təklif edilən qidalara öz "töhfə"sini verən cihazlardan biri də mikrodalğalı sobalardır. Mikrodalğalı sobalar yüksək nisbətdə radiasiya göndərərək qida atomlarını sürətləndirir və isinməni təmin edir. Normal, çoxumuzun evində olan bir mikrodalğalı sobanın içindəki qidaya göndərdiyi radiasiya, bir "WI-FI" şəbəkəsindəki radiasiya sıxlığından təxminən 100.000 dəfə artıqdır. Mikrodalğalı sobalarda isidilən yeməklər sonsuzluq yarada bilir.***

## Fayda verəcəyini düşünürdü, təhlükə verdi

Mikrodalğalı soba 1946-cı ildə icad edilib. Persi Spenser adlı amerikalı alim ultra yüksək tezlikli radarlar üzərində işləyirdi. Bir gün o, maqnetronla təcrübə apararkən cibindəki şokoladın əriməsinin şahidi olur. O, maqnetronun üzərinə sendviç qoyaraq yeməklə təcrübəni təkrarlayıb. Məhsul isinir. 1947-ci ildə Persi Spenser öz ixtirasını patentləşdirdi. Beləliklə, elektromaqnit şüalanmasının o dövr üçün faydalı hesab edilən, amma əslində insanlığa böyük zərəri olan bir xüsusiyyəti - yeməyin sürətli qızdırılması kəşf edildi.

Ukraynalı ekoloqlar sübut ediblər ki, mikrodalğalı sobalar insan orqanizminin enerjisini molekulyar səviyyədə dəyişdirir. Alimlər xüsusilə uşaqlara və hamilə qadınlara belə sobalarda hazırlanan qidaları yeməyi məsləhət görmürlər. Elektromaqnit dalğaları sobadakı qidanın, mayenin molekullarının strukturunu dəyişdirir. Bu sobalarda isidilmiş qida və mayelərdən daxil olan mənfi energetika qanın və limfaların tərkibinə təsir göstərir, xərçəng şişlərinin inkişafına stimul verir.

## Qanın tərkibinə təsir edir!

Mikrodalğalı soba işləyərkən elektromaqnit dalğaları 500 metr radiusda olan insan orqanizminə də ciddi təsir göstərir. Onlar qanın tərkibini dəyişir, hemoglobini azaldır və ağ qan hüceyrələrinin sayını artırır. Mikrodalğalı radiasiya da qan damarlarında yüksək sıxlıqlı xolesterolun tərkibini dəyişdirir. Araşdırmalar sübut edib ki, mikrodalğalı sobalar onların içində qızdırılan süd məhsullarına daha çox təsir edir. Elektromaqnit titrəyişləri südün tərkibini dəyişir. L-prolin turşuları d-izomerlərə çevrilir. D-izomerlər zəhərlidir, sinir sistemini məhv edir, böyrəklər üçün çox təhlükəlidir. Radiasiya zülalı deformasiya edir və xəstəlikləri dəyişir. Mikrodalğalı sobada isidildikdən sonra ətdə kanserogenlər yaranır. Həmçinin taxıl məhsulları da mikrodalğalı sobada qızdırıldıqda kanserogenlərlə zəngin olur.

Mikrodalğalı sobada yemək qızdırıldıqda, qida parçalarının hüceyrə membranı zəifləyir. Qida asanlıqla viruslar, göbələklər və digər mikroorqanizmlərlə yoluxur. Bu qidanın qəbulu bədən əzalarının tədricən çürüməsinə səbəb ola bilər. İnsanlar mikrodalğalı soba radiasiyasına məruz qaldıqda, radiasiya immunitet sistemini pozaraq, hüceyrə bərpasının təbii mexanizmini boğur. Bir insanın mikrodalğalı sobada isidilən yeməkdən aldığı zərər dərhal hiss edilmir. Bu radiasiya bədəndə on beş ilədək toplanır, sonra isə müxtəlif xəstəliklər şəklində özünü göstərir.



## Qida dəyəri məhv olur

Rus alimləri, həmçinin, müəyyən ediblər ki, qidanın qida dəyəri bu sobada qızdırılan zaman 80% azalır. Alimlərin fikrincə, mikrodalğalı sobada yeməklərin qızdırılması və onun köməyi ilə ətin buzunun əridilməsi qanın tərkibinin dəyişməsinə və insan limfa sisteminin fəaliyyətinin pozulmasına, hüceyrə membranlarının sabitliyinin pozulmasına, sinirlərdən beyinə gələn siqnalların axınının yavaşlamasına, mərkəzi sinir sistemində enerji itkisinə səbəb olan sinir hüceyrələrinin parçalanmasına yol açır. Tədqiqatlar mikrodalğalı sobada bişmiş yeməyin aşağı pH dəyərinə malik olduğunu qeyd edir ki, bu da turşu-qələvi balansını pozur və orqanizmin daxili mühitini turşulaşdırır.

Mikrodalğalı sobada hazırlanmış popkorn yemək isə, sadəcə, intihara cəhd etmək deməkdir. Mikrodalğadan popkorna keçən diasetil adlanan kimyəvi maddə ciyərlərimizə düşərək onu zədələyir.

Bir neçə il öncə ABŞ-da federal məhkəmənin qərarından sonra, istehsalçı insan orqanizmi üçün xeyirli olmayan bu qidanı yeyəndən sonra zərər çəkmiş kişiyə təzminat qismində 7,2 milyon dollar ödəməli oldu. 59 yaşlı Ueyn Uotson müntəzəm olaraq evdə popkorn hazırlayaraq yediyindən ağciyərlərində çox nadir xəstəlik yaranıb. Uotson müayinələrin nəticələri ilə sübut edib ki, xəstəliyinin səbəbi popkornu mikrodalğalı sobada hazırlamaq üçün istifadə edilən yağın tərkibində yaranan diasetildir.

## Mikrodalğalı sənayenin sonu?

2021-ci ildə Yaponiya hökuməti ölkədəki bütün "mikrodalğalı sobaları" ilin sonuna qədər utilizasiya etmək qərarına gəldi. Bu qadağanın səbəbi Xirosima Universitetinin alimlərinin apardığı araşdırma olub. Alimlər mikrodalğalı sobalardan çıxan "radio dalğalarının" son 20 ildə sağlamlığa 1945-ci ilin sentyabrında Xirosima və Naqasakiyə atılan atom bombaları qədər zərər verdiyini müəyyən ediblər. Mütəxəssislər müəyyən ediblər ki, mikrodalğalı sobalarda qızdırılan yeməklərdə sağlam olmayan vibrasiya və radiasiya var. Yaponiyada bütün mikrodalğalı soba fabriklərinin tədricən bağlanacağı barədə sosial şəbəkələrdə və mətbuatda məlumatlar yayıldı. Tələblərə əməl etməyən və bu sobalardan istifadə edən bütün vətəndaşları və təşkilatları cinayətin ağırlığından asılı olaraq 5 ildən 15 ilədək həbs cəzası gözləməsi barədə məlumatlar dərc edildi.



Xatırladaq ki, həmin vaxt Cənubi Koreya bütün mikrodalğalı soba fabriklərini 2021-ci ilə, Çin isə 2023-cü ilə qədər bağlamaq planlarını açıqlamışdı.

Həmin ərəfədə Rusiya mətbuatında yayılan bəzi məlumatalarda isə deyilirdi ki, 2011-ci il martın 11-də Fukusima AES-də baş vermiş qəzadan sonra nəyin bahasına olursa olsun resurslara qənaət etmək və nüvə enerjisindən istifadədən uzaqlaşmaq qərarı alındı. Vətəndaşlar enerjiyə mümkün qədər qənaət etməyə təşviq edilməyə başlandı, hər yerdə bu cür müraciətlərin əks olunduğu plakatlar asdılar, şəhərlərdə binaların və körpülərin işıqlandırılmasını söndürdülər, mümkün bütün qənaət növlərinə əl atıldı.

Hamımız yaponların çox intizamlı olduqları barədə məlumatlıyıq, hökumətin çağırışından sonra əhali elektrik cihazlarından istifadəni minimuma endirməyə çalışdı, bu, ilk növbədə mikrodalğalı sobalara aiddir, çünki məhz bu sobalar və elektrik çaydanları, düyü bişirmək üçün istifadə edilən xüsusi elektrik qazanları çox enerji sərf edir. Bir ailənin bir neçə televizoru varsa, hamısı ləğv edilərək yalnız 1 televizor istifadə edildi, kondisionerlər yalnız ən kritik anda istifadə edilir. Metro və alış-veriş mərkəzilərində bəzi eskalatorlar və liftlər söndürülüb.

## Erkən doğuşa, anomaliyaya səbəb olur

Qərb mütəxəssislərinin son 15 il ərzində apardığı tədqiqatların nəticəsi olaraq aşkarlanıb ki, bu məişət texnikası hamilə qadınların özlərinə və onların doğulacaq körpələrinin gələcəyinə mənfi təsir edir. Belə ki, hamiləlik zamanı mikrodalğalı sobadan istifadə edən qadınlar sağlam şəraitdə vaxt keçirənlərə nisbətən anomal hamiləlik yaşamaqla bərabər eyni zamanda erkən doğuşlara məhkum olunur, yenidoğulmuşlar isə daha çox dünyaya travmatik gəlmə ilə üzüzə olurlar. Eyni zamanda onların gələcəkdə xroniki xəstəliklərə tutulma ehtimalı 5 dəfə artmış olur. Təcrübələr 800 hamilə qadın üzərində və onların uşaqları üzərində 15 ilə yaxın müddətdə aparılıb, təhlükəyə səbəb kimi artıq dozada qəbul olunan elektromaqnit dalğaları göstərilib.

Mikrodalğalı sobaların faydaları və zərərləri, cihazın sağlamlığa olan təhlükələri haqqında olduqca çox araşdırma aparılıb, amma bəzi tədqiqatlar fərqli nəticə ortaya qoyur. Ehtimal ki, bu mikrodalğalı soba istehsalçıların satış faizlərinin düşməsindən narahat olur və sifarişli materiallar hazırlanmasını təşkil edir. İnsanlar mikrodalğalı sobanın praktik istifadəsindən dolayı ondan imtina etmir, lakin yeməyi tez qızdırmaq üçün işlərinə yarayan bu sobanın, əslində, evə və sağlamlığa qoyulan bomba olduğunun fərqində deyillər.

*Lalə Mehralı*

ARAŞDIRMA

# Orta Dəhlizdə açar rolunu oynayan ölkə







## *Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşımalar 62 % artıb*





Bu ilin yanvar-iyul aylarında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM, Orta Dəhliz) ilə 2,5 milyon ton yük daşınıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 62 % çoxdur. Qazaxıstan Nəqliyyat Nazirliyi bu il TBNM vasitəsilə 4,2 milyon ton yük daşınacağını proqnozlaşdırır. 2023-cü ildə isə Orta Dəhlizlə yükdaşımalar 2022-ci illə müqayisədə 65 % artaraq 2,7 milyon ton təşkil edib.

Qırğızıstan mətbuatında yayılan məlumata görə, bu ölkənin xarici işlər naziri Jeenbek Kulubayev rəhbərlik etdiyi qurumun yarımillik fəaliyyətinin yekunlarına həsr olunan mətbuat konfransında Orta Dəhlizin Avropaya yüklərin tranziti üçün alternativ marşrut kimi nəzərdən keçirildiyini bildirib. O, Rusiya dəhlizinin bağlanması ilə yüklərin Avropaya daşınması və tranzitinin xeyli çətinləşdiyini, bu gün bütün yüklərin cənub dəhlizindən keçdiyini vurğulayıb.

J.Kulubayev hazırda yüklərin əvvəlcə İrana, oradan Türkiyəyə, daha sonra Avropaya, əks istiqamətdə isə analoji marşrutla göndərildiyini, bununla belə daşınma prosesini sürətləndirə biləcək alternativ yolların nəzərdən keçirildiyini, həmin variantlardan birinin isə Qazaxıstan, Türkmənistan, Azərbaycan və Qafqazdan keçən Orta Dəhliz olduğunu diqqətə çatdırıb. Nazirin sözlərinə görə, bu layihələr avropalı tərəfdaşlar və Mərkəzi Asiya ölkələri ilə fəal şəkildə müzakirə olunur: "Tərəfdaşlar regionda daşıma prosesini asanlaşdırmaq və ticarəti artırmaq üçün bu istiqamətdə birgə işləməyə hazırdırlar. Bu, həm də uzaq tərəfdaşlardan investisiya cəlb etməyə imkan verə bilər. Bu platformanın istifadəsi həm Mərkəzi Asiya ölkələri, həm də Qırğızıstan üçün faydalıdır, çünki vahid bazar kimi çıxış etməyə və regionun birgə inkişafına kömək etməyə imkan verir".

Qeyd edək ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

Dünya Bankının proqnozlarına görə, əgər uyğun logistika və nəqliyyat şərtləri təmin olunarsa, 2030-cu ilə qədər Çin ilə Avropa İttifaqı arasında ticarət dövriyyəsi 30 faiz artacaq. Amma bunun üçün tələblərə cavab verən nəqliyyat dəhlizinin olması vacibdir. Çin və Avropa dünyanın ayrı-ayrı nöqtələrində yerləşir. Bu coğrafi məkanların aralarında təxminən 9 min kilometr məsafə var. Ona görə də hazırda bu iki coğrafi məkanın arasında malların daşınması üçün yeni marşrutun seçilməsi bütün dünyanın diqqət mərkəzindədir. Orta Dəhliz marşrut bu layihəyə əsas namizəddir.

Azərbaycan şanlı Zəfəri ilə 30 ilə yaxın işğal altında qalan torpaqları azad etdikdən sonra regionun digər dövlətlərinin də beynəlxalq iqtisadi layihələrdə iştirakına imkan yaranıb. Eyni zamanda, bu Zəfər Azərbaycanın Avropa ilə Asiya arasındakı ticarət əlaqələrində mühüm tranzit məntəqəsi olmasını şərtləndirir.

Böyük Britaniyanın Azərbaycan, Qazaxıstan və Qırğızıstandakı keçmiş səfiri Ceyms Şarp da ölkə mediasına müsahibəsində Azərbaycanın Orta Dəhliz üzrə açar rolu oynadığını qeyd edib: "Orta Dəhlizin modernləşdirilməsini dəstəkləyəcək regional iqtisadi inkişaf sadəcə xammalın ixracının asanlaşdırılması ilə bağlı deyil, bu marşrut həm də diversifikasiya olunan, əlavə dəyər gətirən iqtisadiyyat yaratmaq üçün mühüm önəm daşıyır. Burada mərkəzlərin xüsusi üstünlüyü var. Qədim İpək Yolunun dərslərindən biri də odur ki, marşrut boyunca yerləşən qovşaqlar mühüm ticarət mərkəzlərinə çevrilir. Fikrimcə, Orta Dəhlizin ən əhəmiyyətli qovşağı Ələt qəsəbəsində yerləşən limandır. Bu infrastruktur Orta Dəhlizdə əsas qovşaqdır. Bütün marşrutlar oradan keçir və bu, belə unikal mövqedə olan yeganə yerdir. Üstəlik, Rusiya və İran arasında Şimal–Cənub dəhlizinin marşrutu üzərində yerləşir".

Keçmiş səfir qeyd edib ki, Ukraynada müharibə başlayandan bəri Avropada Rusiya üzərindən yüklərin daşınmasına münasibətdə ciddi dəyişiklik baş verib. Bu, Orta Dəhlizə, daha dəqiq desək, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna marağın yenidən artmasına səbəb olub. Maraqlıdır ki, Orta Dəhlizə marağı artıran təkcə Ukraynadakı müharibə deyil. Husilərin kommersiya gəmilərinə qarşı raket və pilotsuz təyyarələr atdığı Qırmızı dənizdə baş verən hadisələr də hökumətləri və şirkətləri nəqliyyat marşrutlarının şaxələndirilməsi zərurətindən xəbərdar edib. Asiya ilə Avropanı birləşdirən əlavə yol kimi Orta Dəhlizə investisiya qoyuluşunun məntiqli olmasının bir neçə səbəbi var. Təbii ki, Orta Dəhliz digər marşrutları əvəz etməyəcək, lakin alternativ marşrutu dəyərləndirəcək.

Diplomat hesab edir ki, marşrutun inkişafı üçün həm investisiya, həm də əməkdaşlıq lazımdır. Həm "sərt birləşmə", həm də "yumşaq birləşmə" adlandırıla bilən problemlər var. "Hard coupling" dəmir yolu xətlərinin tikintisi və ya modernləşdirilməsi, vaqonların və liman infrastrukturunun satın alınması kimi məsələləri əhatə edir. "Yumşaq ünsiyyət" daha çox gömrük prosedurları ilə bağlıdır. Ümumiyyətlə, "sərt birləşmə" investisiya, "yumşaq birləşmə" isə əməkdaşlıq tələb edir. İnvestisiya baxımından bu, mütləq baş verir. Belə ki, bu ilin əvvəlində Avropa İttifaqı "Global Gateway" toplantısı keçirib və bu toplantıda təxminən 10 milyard avro vəsaitin ayrıldığını elan edib.

***Nigar Orucova***





# Xərçəng qadın orqanizmini sevir, amma...

***Dünyada aparılan araşdırmalar zamanı uzun boylu qadınların xərçəngə yaxalanma riskinin daha yüksək olması barədə nəticələr əldə edilir. Bunu bir müddət öncə Amerikanın Albert Enşteyn Tibb Colleci də sübut etdi. Araşdırmanın nəticəsinə görə, hər 10 sm uca boy qadınların süd vəzi, yumurtalıq, böyrək, dəri xərçəngi kimi xəstəliklərə yaxalanma riskini 13 faiz artırır. Bundan öncə də İngiltərənin Oksford Universitetində aparılan araşdırmalar 1,52 sm-dən uzun insanlarda hər 10 sm-ə görə xərçəng riskinin 16 faiz artdığını müəyyən etmişdilər.***

Ümumiyyətlə, dünyanın bir çox araşdırma mərkəzi iddia edir ki, qadınların boy ölçüsü ilə yumurtalıq xərçəngi arasında əlaqə var. Aparılan araşdırmalar nəticəsində uzunboylu qadınların bəstəboylara nisbətən yumurtalıq xərçənginə tutulma riskinin böyük olduğunu da təsdiqləyir.

Araşdırma müddətində 14 ölkədən 25 min yumurtalıq xərçəngi xəstəsi və 80 min sağlam qadın müayinə edilib və uzun boyun bu xəstəliyə yoluxmaq üçün tutarlı bir səbəb olduğu müəyyən edilib. Alimlər deyir ki, qısa və bəstəboylu qadınların yumurtalıq xərçənginə yoluxma riski 1000 nəfərdə 16-dırsa uzunboylu qadınlarda bu rəqəm hər min nəfərə 20 risk təşkil edir.

Ümumiyyətlə, qadınların uca boyundan başqa, artıq çəkili olması da xərçəngə yoluxma səbəblərindən biridir. Araşdırmalara görə, qadınlarda xərçəngi artıq çəki, kişilərdə isə stress və tütün yaradır. Mütəxəssislər hər 500 qram artıq çəkinin xərçəng riskini 6% artırdığını iddia edirlər. Böyük çəkidə doğulmuş və ya həyatının gələcək illərində artıq çəkiyə sahiblənmiş qadınların kişilərə nisbətən daha çox xərçəngə yoluxma riski var.

Çəkisi dörd kiloqramdan artıq olan körpələr 3-3,5 kq olan körpələrdən 16% çox xərçəng riski daşıyır. Qadınların artıq çəkisi süd vəzilərində və uşaqlıq yolunda xərçəngə səbəb olur. Artıq çəki ilə bərabər artan qadınlıq hormonu uşaqlıq yolu xərçənginin birinci səbəbidir.

Xərçəng çoxalan hüceyrələr xəstəliyidir, bir orqanda nə qədər sürətli və çox böyümə varsa xərçəng riski də bir o qədər yüksəkdir. Normal halda hüceyrələr orqanda yenilənmə məqsədi ilə çoxalmalıdır. Amma hər hüceyrənin də bir ömrü var, ölən hüceyrənin yerinə yenisi yaranır. Bəzən bu hüceyrələr orqanizmin nəzarətindən çıxır və sürətli şəkildə çoxalır. Bu çoxalma o qədər sürətlidir ki, ölən hüceyrələr bu sürətə yetişə bilmir və beləliklə xərçəngin təməli qoyulur.



Orqanizm bir çox hallarda bu hüceyrələri nəzarəti altına ala bilmir, amma mümkün qədər nizamlamağa çalışır. Əgər orqanizmimiz nizamı qorumağa çalışmasa bu gün dünyada xərçəngdən ölənlərin sayı fəlakət həddə çatardı.



Endokrinoloq Sahib Məmmədov deyir ki, qadınlarda döş, uşaqlıq, yumurtalıq xərçənginə ona görə çox rast gəlinir ki, onların orqanizmi xərçəng üçün münbit zonadır: "Qadınlıq orqanları xərçəngin yaranması və inkişafı üçün olduqca əlverişli yerlərdir. Uşaqlığın iç təbəqəsi olan "endometrium" qadın bədəninin ən hərəkətli zonasıdır və 1 sm qalınlığındadır, elə buna görə burada xərçəng üçün münbit şərait yaranıb. Yumurtalıq xərçənginin yaranma səbəbi isə bu orqanda da hüceyrələrin hərəkətli olmasıdır".

Həkim deyir ki, həm hüceyrə yenilənməsi, həm də yumurtalığın özünün tez-tez yenilənməsi səbəbindən bu orqanın xərçəngə yoluxması halları digər xərçəng növlərindən daha çox rastlanır. Heç vaxt uşaq doğmayan, və ya gec doğan, eləcə də tez-tez abort etdirən qadınlarda yumurtalıq xərçəngi çox rastlanır.

2022-ci ilin statistikasına görə, Azərbaycanda xərçəng xəstəsi kimi qeydiyyatda olan şəxslərin sayı 59 min nəfər olub. Məlumata görə, ölkəmizdə vəfat edən hər 9 nəfərdən təxminən 1-i xərçəngdən ölür. Ölümə səbəb olan xərçəngin növünə gəlincə, süd vəzisi 2638 , traxeya, bronx, ağciyər 1379, mədə 1372, bağırsaq 701, qida borusu isə 486 təşkil edib.

Süd vəzi xərçəngi - dünyada yayılmış ən geniş xərçəng növüdür. Hər il dünyada 400000 qadına bu diaqnoz qoyulur. Bu 29 saniyəyə bir qadının xəstə olması deməkdir. Ümumilikdə hər 8 qadından birində xərçəngin bu növünə rast gəlinir. Dünyada 40 yaşdan aşağı qadınlarda bu xəstəliyə görə 1-ci yeri Türkiyə tutur. 40 yaşdan aşağı qadınlarda SVX diaqnozu saya görə dünyada birinci yerdədir. Azərbaycanda hər 8 qadından biri süd vəzi xərçəngindən əziyyət çəkir və bu rəqəm ilbəil artmaqdadır. Üstəlik də, bu xəstəlik artıq çox gəncləşib. Bir çox qadının mammoqrafiya etdirmədiyini nəzərə alsaq bu rəqəmin çox olduğunu ehtimal etmək olar.

Qeyd edək ki, xərçəng xəstələri daha çox Bakıda yaşayır. Bunun da əsas səbəbi paytaxtda əhalinin sıxlığı və ekoloji durumun pis olmasıdır. Radiasiya faktoru da xərçəngin yayılmasında mühüm rol oynayır. Xüsusilə akasiya ağaclarının kütləvi qırılmasının xərçəng xəstəliyinin artamasına təkan verdiyi barədə tutarlı araşdırmalar var. Bu araşdırmalara görə bir akasiya ağacı 40 kvadratmetr ərazini radiasiyadan təmizləyir. Qadınların süd vəzisi xərçənginə yoluxmasının səbəbinə gəlincə isə, bu süd vəzilərinin tez-tez hormon dəyilikliyinə uğraması ilə əlaqədardır. 40 yaşını keçən hər yüz qadından 2-si süd vəzisi xərçənginə yoluxur. Erkən diaqnozu qoyulan xəstəliyin sağalma şansı 95 faizdir.

Yumurtalıq xərçəngi qadınlarda xərçəngdən ölmə səbəbi arasında 5-ci sıradadır. İlk sıralarda ağciyər, döş, bağırsaq və mədəaltı vəz (pankreas) xərçəngləri qərarlaşıb. Maraqlıdır ki, tez-tez rastlanan xərçəng növləri daha az ölümə səbəb olduğu halda nadir rastlanan xərçənglər bir anda öldürə bilir. 40 yaşdan yuxarı qadınların ölümünün 2 faizinə yumurtalıq xərçəngi səbəb olur. Bu xərçəng növü ən çox 50-60 yaşlarda rastlanır və ən çətin diaqnoz qoyulan növdür.

Xərçəng xəstəliyinin qadınlarda özünü göstərən növləri əsasən yumurtalıq, süd vəzisi və uşaqlıq boynu xərçəngidir. Erkən diaqnozun müalicədə böyük paya malik olduğunu bilmək önəmlidir.

Xərçəng xəstəliyi təhlükəlidir, nə elm, nə texnologiya onu kökündən məhv edə bilmir. İnkişaf etmiş xəstəlik üçün ediləcək çox az müalicə növü var. Amma erkən diaqnoz qoyulmuş xəstələrin sağalma ehtimalı yüksəkdir. Qadınların xərçəngə yoluxmasının qarşısını alacaq yeganə insan elə qadın özüdür.

Xərçəngdən qorunmaq istəyən qadının ən effektiv silahı isə vaxtaşırı həkim müayinəsindən keçməkdir. Xərçəng başlanğıcda çox yavaş irəliləyən xəstəlikdir, bu səbəbdən də diaqnozu çətindir. Qadının 6 aydan bir keçəcəyi həkim müayinəsi bu diaqnozu vaxtında qoya bilər.

Xərçəngi yaradan faktorların başında stress gəlir, stressi həyatınızdan uzaq tutun. Natural qidalanın, fast-food qidalanmadan uzaq durum. İdman edin, gəzintiyə çıxın, real sosial həyat yaşayın, dosları, qohumlarla sıx ünsiyyət qurun. Doğuşdan sonra körpənizi əmizdirin, görkəmim pozular deyə südü süni yollarla kəsməyə çalışmayın, körpəsinə süd verən qadınlarda xərçəng nadir rastlanır.

Limon, mandarin, nar xərçəngin düşmənidir, bol-bol istifadə edin. Göbələk xərçəng hüceyrələrini məhv edir. Yerkökü döş, uşaqlıq xərçəngi ilə müabirizədə güclüdür. Pomidor xərçəng hüceyrələrini azaldır. Ümumiyyətlə, bütün qırmızı meyvə və tərəvəzlər xərçəng xəstəliyi ilə mübarizə gücünə malikdir. Kələm, yaşıl çay, brokoli, gül kələmi, qatıq, ananası çox istifadə edin. Xərçənglə ona yoluxmamışdan öncə mübarizə aparın.

***Lalə Mehralı***

# Gənclik: kaş ki bir də dönərdim o çağlara




***Gənclik… İnsan ömrünün ən gözəl, əvəzolunmaz çağı. Əgər bilsək ki, gənclik əldən gedəndən sonra arxasınca düşüb axtaracaq, arayacaq, yenidən həyatımıza qaytarmağa çalışacağıq, lap əvvəldən onun qədir-qiymətini bilərik. Çünki gəncliyin nə qədər gözəl olduğunu onu yaşayarkən deyil, itirəndən sonra tam mənası ilə dərk edirik.***

O vaxt dərk edirik ki, saçlarımız yavaş-yavaş ağarmağa başlayır. O ağlar bizi gənclikdən çox uzaqlara aparır. Nə qədər gözəl, təravətli görünməyə çalışsaq da, saçların arasından boylanan ağlar artıq başqa bir yolçuluğa çıxdığından xəbər verir. Gəncliyin gözəlliyini, əvəzolunmazlığını o zaman dərk edirik ki, güzgü qarşısında gözlərimizin ətrafında kiçik qırışları görürük. O şüşə kimi dümdüz, hətta gülümsəyəndə belə heç bir qırış yaranmayan üzümüzdəki cizgilər bizə yeni bir yolun başlanğıcında oldumuzu söyləyir.

Gəncliyin əlimizdən uçmaqda olduğunu o zaman anlayırıq ki, ümumilikdə əvvəlki görkəmimizdən əsər-əlamət qalmır. Bu zaman nə etsək də gənclik dövrümüzün bir anını belə geri gətirə bilmirik. Üzümüzdəki qırışlar get-gedə daha da dərinləşir. Saçlarımız gündən-günə daha çox ağarmağa başlayır. Bəzənib-düzənəndə, geyinib-kecinəndə atrıq gənclikdə göründüyümüz qədər şux və gözəl görünmürük.

İllər gəncliyimizdən ötür İllər gəncliyimizi bizdən qoparır. İllər həm də gözəlliyimizi və yaraşığımızı bizdən alır. Lakin fərqində olmuruq, düşünürük ki, elə həmişə belə görünəcəyik. Bu gözəlliyi, yaraşığı kim əlimizdən ala bilər ki? Bu, bizə məxsusdur. Bunu Yaradan verib bizə, bizim də olacaqdır. Lakin illər axı bunu demir, illər başqa sözlər söyləyir və söylədiklərinin hər birini həyat bizə yaşadır.

Elə ki, gəncliyin son akkordlarını dinləyirik, bundan sonra başlayırıq yavaş-yavaş yaşlanmağa. Hələ də gənclikdən əlimizi üzmürük. Düşünürük ki, yox, o, əlimizdən hara gedə bilər ki?.. Lakin gedir, həm də sürətlə gedir. Getdikcə də zərbələrini vurur. Biz anlayanda ki, yox, ta o gənclikdən heç nə qalmayıb, başlayırıq onu yenidən axtarmağa. Bunun üçün axtarışlar edirik, nələrə əl atırıq, nə əziyyətlər çəkirik, zəhmət sərf edirik, lakin gəncliyi daha heç yerdə tapa bilmirik.

Yaşlanırıq Gəncliyin son nişanələrini itiririk. İtirdikcə də ən dəyərli nəyisə itirtdiyimizi hiss edirik. Deyirlər, adam nəyisə itirəndə, ölənədək gözü onu axtarır. Bax, bir də gənclik belədir. Baxırsan ki, yaş ötüb, olub 50-60, sən hələ də onu-gəncliyi axtarırsan. Gözlərin hər yerdə onu gəzir. Fotoları tökürsən qarşına, başlayırsan onlarla danışmağa. Kimlərəsə o şəkilləri göstərməklə gəncliyini göstərmək istəyirsən. Sənin də gənclikdə gözəl və yaraşıqlı olduğunu sübut etmək, hamının bilməsini istəyirsən.

Lakin bunlar da keçicidir. Andır, anlar isə keçir, gedir. Sənsə olduğun yerdəsən. Daha gənc deyilsən, yaşlanmaqdasan. Bax bu an ürəklər sızlayır. Düşünürsən ki, ah, nə tez ötüb getdi gəncliyim. Kaşki bir daha dönərdim o çağlara. Kaşki yenidən gənc olardım. Kaşki o illərin bircə anını geri qaytara bilərdim. Təəssüf ki, mümkün deyil. Gənclik getmişdir, yerinə yaşlılıq gəlmişdir. Ta sənin yol yoldaşın təravət deyil, soluxmuş üz, qırışlı əllərdir. Nə qədər çalşsan da, şux qamət deyil, o sürətli addımlar deyil, əyilmiş qamətinlə yavaşıyan addımlardır. Sənin yolyoldaşın günəşin zərrin şəfəqlərində parıldayan saçlar deyil, yıpranmış, ağarmış, daha parlamayan saçlardır.







Bəs ürək?.. Bəli, tək ürəyin gəncliyini bizdən qoparmağa heç bir qüvvənin gücü çatmır. İçimizdə, köksümüzdə bəlkə də o da qocalır, bilmirəm kiçilirmi deyim, yaşlanma səbəbindən formasını itirirmi deyim, lakin istəkləri, həyata baxışı, dəyişmir. O, gənclik duyğuları ilə yaşayan və bu duyğuları hər an insana anladan tək olanımızdır. Bəlkə elə buna görə deyirlər ki, ürək qocalmır. Qocalmır, bəli. Gənclikdən bizə qalan tək ürəyimizdir. Bəlkə də tək ürək qocalmır ki, gəncliyi hər an insana anlada. Nə qədər gözəl bir dövrün əldən getdiyini hər an xatırlada və deyə ki, insan övladı, nə üçün qədrini bilmədin gəncliyin. Bəli, elə bu səbəbdən ürəyin qocalmamasına hökm verilib, inanın

Beləcə, həyatda qiymətini biləcəyimiz, borclu olacağımız çox şeylər var. Gənclik də onlardan biridir. Gözəlliyimiz,yaraşığımız ilə birlikdə fəal, aktiv iş həyatımız da gəncliklə bağlıdır. Dünyaya övlad bəxş etməyimiz, onu böyük səbrlə böyütməyimiz də gəncliyin bəxşişidir. Ev qurmaq, ev sahibi olmaq da gəncliyin ərməğanıdır. Sözün həqiqi mənasında, bütün gözəl görünən hər şey gənclikdədir. Yaşayarkən qədrini bilmədiyimiz, sonra çıraq işığında axtardığımız gənclik

Qədrini bilin gəncliyinizin, əziz gənclər. Həqiqətən də gəncliyi bayram etmək, onu xüsusi gün kimi qeyd etmək ən gözəl ənənələrdən biridir. Onu ildə bir gün deyil, hər gün bayram kimi xüsusi təntənə ilə anmaq lazımdır. Çünki insan övladına verilən ömrün dörd fəslinin ən gözəli gənclikdir. Gənclik bahardır, yazdır. Çiçəkləri, rayihəsi ilə gözəldir. Rəngləri, rəngarəngliyi ilə gözəldir.

Demirik ki, uşaqlıq, qocalıq çağları yaxşı deyil. Onların da özünəməxsusluqları var. Biz uşaq olmasaq, gəncləşə bilərikmi? Gənc olmasaq, yaşlaşa, nənəbaba ola bilərikmi? Nəvə sevgisini, şirinliyini yaşaya bilərikmi? Ağ saçlar, ağ saçlar deyirik, yaşlanmasaq, o müdrikliyi yaşaya bilərikmi? Bütün fəsillər kimi, insan ömrünün də bütün çağları gözəldir. Lakin gəlin etiraf edək ki, gənclik onların ən gözəli və əvəzolumazıdır. Sən nə qədər gözəlsən, gənclik!

12 avqust Beynəlxalq Gənclər Günüdür. Bayramınız mübarək, əziz gənclər!

***Mətanət Məmmədova***

## Sonra demədi-demə, yaxud casus belli

**ŞTRİX**

Beynəlxalq hüquqda ikibaşlı oyun oynamaq, yaxud iki tərəfdən birini seçmək anlayışı mövcud deyil. Bu baxımdan, Ermənistanın konstitusiyasında davam edən miatsum fonunda, eləcə də sərhədlərimizdə bizə dost olmayan dövlətlərə məxsus hücum silahlarının yerləşdirilməsi, habelə, hərbi məsləhətçilərin meydana çıxması hüquqi ritorikada CASUS BELLİ (qədim Roma hüququnda müharibə etmək üçün formal səbəb) adlanır. Digər tərəfdən, məlum "profilaktik tədbir" artıq ümumi tədbirin tərkib hissəsidir. Daha dəqiq desək, müharibəyə hazırlıq prosesidir.



**Azərbaycanın iki hissəsinin coğrafi birləşməsi faktoru get-gedə öz aktuallığını artırdıqca...**

Bu gün Ermənistan açıq şəkildə silahlanır, hücum silahlarına yiyələnir, Fransadan, Hindistandan bəhrələnir, ABŞ-dan isə son təlimlərdən sonra silahlar qarmalayır və bu, faktdır! Eləcə də, rəsmi İrəvan Bakı ilə normal ünsiyyət hüququndan da yavaş-yavaş imtina edir. Və ən əsası: hətta Ermənistanı siyasi, hərbi cəhətdən dəstəkləyən ölkələr varsa belə, Azərbaycan öz sözünü dediyi vaxt heç kim heç vaxt Ermənistan üçün ayağa qalxmayacaq və onun uğrunda vuruşmayacaq.

**Fakt...**

Biz digər ölkələrin müharibələri fonunda belə halları çox müşahidə etmişik. Misal üçün, bu gün Rusiya ilə Ukrayna arasındakı savaşda KTMT-nin kənarda qalması da bu faktı təsdiq edir.

Beləliklə və xüsusilə bir dövlətin - Azərbaycanın iki hissəsinin coğrafi birləşməsi faktoru get-gedə öz aktuallığını artırdıqca Ermənistanın məhvolma amilini də çoxaldır. Necə deyərlər, sonra demədi-demə...

***Afət Tahirqızı***

ANALİZ

# Dağıdıcı müxalifətin “boykot” taktikası iflasa uğradı

***Sentyabrın 1-də keçiriləcək parlament seçkilərində şəffaflığın təmin edilməsi, azad seçki mühitinin yaradılması, müəyyən yeniliklərin tətbiq olunması Azərbaycanın demokratik, hüquqi dövlət quruculuğu prosesinə sədaqətli olduğunun əyani sübutu sayıla bilər. Tam qətiyyətlə demək olar ki, azad və demokratik şəraitdə keçəcək parlament seçkiləri sosial-iqtisadi sahədə böyük uğurlara imza atan, 44 günlük Vətən Savaşı ilə ərazi bütövlüyünü və suverenliyini bərpa edən Azərbaycanın gələcək inkişafında əhəmiyyətli rol oynayacaq. Artıq avqustun 9-dan parlament seçkilərinin təbliğat-təşviqat dövrü başlayıb.***





Namizədliklərini irəli sürən şəxslərin sağlam, müsbət nəticələrə hesablanan debatları, diskussiyaları keçiriləcək. Təbii olaraq seçici maraqlarını təmin etməyi bacaran, dövlətçiliyə sadiq şəxslərin platformasını müzakirə edib dəyərləndirməyə çalışacaq. Qutudan kimin çıxacağından, kimin deputata seçiləcəyindən asılı olmayaraq qazanan Azərbaycan dövləti və xalqı olacaq. Ən azı ona görə ki, budəfəki parlament seçkilər 7 fevral 2023-cü ildə keçirilən prezident seçkilərində olduğu kimi, Azərbaycanın hər yerində keçiriləcək. Seçkilər Xankəndidə, Şuşada, Xocavənddə, Əsgəranda, Qubadlıda, Zəngilanda və digər işğaldan azad edilən ərazilərdə təşkil edilən və yaradılan seçki məntəqələrində gedərək istədikləri namizədə səs verəcək. Bundan qürurverici, müsbət nailiyyətin mövcudluğuna inanmıram. Məhz bu baxımdan insanlar böyük fərəh və coşqu ilə parlament seçkilərinə hazırlaşır.

### Düşmənlər arasında sapı özümüzdən olanların yer alması təəccüb və həm də təəssüf doğurur

Təbliğat-təşviqat kampaniyasının ilk günü olmasına baxmayaraq namizədliklərini irəli sürən şəxslər və səsverməyə hazırlaşan seçicilər müxtəlif mərkəzlərdə, eləcə də küçə və meydanlarda yığışıb, seçki prosesi ətrafında müzakirələr qururlar. Söz yox ki, belə bir yüksək səviyyəli seçki hazırlığı və əhalinin böyük coşqu ilə seçki prosesində iştirakı dostları sevindirib, düşmənlərin bağrını çatladır. Dostlar bəlli tərəfdir, düşmənlər arasında sapı özümüzdən olanların yer alması təəccüb və həm də təəssüf doğurur. Ən azı ona görə ki, onlar Azərbaycanda doğulublar, Azərbaycanın çörəyini yeyib, suyunu içib, azərbaycanlı olaraq boya-başa çatıblar. Ona görə də, indiki qürurverici tarixi anların yaşandığı bir dövrdə dağıdıcı ünsürlərin ermənipərəst şəxslərlə və dairələrlə iş birliyinə getməsi və Azərbaycanın milli maraqlarına zərbə vurmağa çalışmaları cəmiyyətdə haqlı narazılıqlar yaradır. Görünən isə ondan ibarətdir ki, Əli Kərimli, Cəmil Həsənli və onların ətrafında fırlanan trollar ictimai narazılıqdan və qınaqdan nəticə çıxarmırlar. Əksinə, daha açıq formada öz bəd əməllərini və fəaliyyətlərini davam etdirirlər.

### Müsavat AXCP-dən üstün olmağa çalışır

Seçkilərin başlanması və öz sakit axarı ilə davam etdiyi bir vaxtda diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, dağıdıcı müxaliflər arasında seçkilərə münasibətdə fərqli mövqelər var. Əvvəllər AXCP sədri Əli Kərimli hansı addımı atırdısa, Müsavat rəhbərliyi də eyni mövqeyi nümayiş etdirirdi. Seçki fərqli nüanslar ortaya çıxartdı. Bəlli oldu ki, Müsavat dağıdıcı meyilli təşkilat olsa da, lazım gələndə cəmiyyətin tələbini yerinə yetirməyə çalışan partiyadır. Baxmayaraq ki, Müsavat da AXCP kimi müəyyən xarici dairələrə və qruplara bağlıdır. Xarici ölkələrə “mühacir” ixracında da Müsavat əsas təşkilatlardandır. Buna rəğmən parlament seçkilərinə qatılmağa üstünlük verdi. Bu addımına görə Müsavata maddi və mənəvi dəstək göstərən xarici fondlar ona hansı cəzanı verəcəyini söyləmək çətin olsa da, hər halda cəsarət nümunəsi ortaya qoydu. Seçkiyə qatılmaqla Müsavatın uğur əldə edə biləcəyi inandırıcı olmasa da, hər halda şansının yoxlanılması baxımından yaxşı haldır. Həm də AXCP-nin yedəyində sürünən partiyalardan olmadığını göstərmiş olur. Seçki məğlubiyyəti Müsavat üçün son olmaya bilər. Hətta ehtimalla Müsavat üçün müxalifət düşərgəsində yeni dönəm başlayar. O mənada ki, yenidən müxalifətin əsas partiyasına çevrilmək şansı yaranar. Əminliklə demək olar ki, əgər Əli Kərimli və Cəmil Həsənli seçkilərdə 5 faiz belə nəticə əldə etmək imkanlarının olduğunu ehtimal etsəydilər, mütləq seçkiyə qatılıb şanslarını yoxlayardılar.

Fəqət Əli Kərimlinin və Cəmil Həsənlinin imicləri tam şəkildə ləkəlidir. İnandırıcı deyil ki, “Zəngəzur dəhlizi Azərbaycanın avantürasıdır”. “Xankəndidə ermənilərin hüquqları pozulur”, “Qarabağın azad edilməsi Koçaryanın, Sarkisyanın Azərbaycanın torpaqlarını işğal etməsindən artıq deyil”, “bizim də Paşinyan kimi demokratik baş nazirimiz olaydı” və bu kimi separatçı fikirlər söyləməklə xalqın heysiyyatına toxunan Əli Kərimliyə, Cəmil Həsənliyə hansı seçici səs verər? Cəmiyyət ayıqsayıqdır və hər bir məsələni düzgün analiz edib qərar verməyi bacarır. Ona görə də, AXCP və Milli Şura tam şəkildə şanssızdır. Əgər Əli Kərimli, Cəmil Həsənli və onların trolları mövqelərini dəyişməsələr və xarici ermənipərəst dairələrin sifarişlərini yerinə yetirməkdən imtina etməsələr, onların Azərbaycan cəmiyyətində hansısa məsələdə və taleyüklü tədbirlərdə cüzi də olsa uğur qazanmaq şansları olmayacaq.

**İLHAM ƏLİYEV**



# İran-İsrail münaqişəsi və kürdlərin imtahanı

Suriyanın şimal-şərqindəki ərəb qəbilələri ABŞ-ın dəstəklədiyi kürd qoşunlarının mövqelərinə hücum etməyə cəhd ediblər. Hücum, Amerika protektoratlarının əhalisinin yerli hökumətlərdə etnik ədalətə nail olmaq üçün səfərbər olduğu keçən ilin sentyabrından bəri ən geniş yayılmış hücum idi. Kürd komandirləri deyirlər ki, üsyanı açıq şəkildə Dəməşqdəki mərkəzi hökumət və onun əsas müttəfiqi İran körükləyir. Bu, İran-İsrail gərginliyi fonunda ABŞ qoşunlarını sıxışdırıb çıxarmaq kampaniyasının bir hissəsi kimi görünür.



Toqquşmalar Deyr əz-Zor əyalətinin mərkəzi hakimiyyətin nəzarətində olmayan kənd yerlərində baş verib. ABŞ-a yaxın kürdlərin çoxluq təşkil etdiyi birlik olan Suriya Demokratik Qüvvələri (SDQ) bildirib ki, Dəməşq və Tehranın dəstəklədiyi ərəb qəbilə qrupları neft hasil edən ərazilərə hücuma başlayıb. Bu aksiya SDQ-nin repressiv siyasətindən qəzəblənən ərəb qəbilələrinin Kürd Muxtariyyətinə qarşı mübarizədə birləşmək qərarına gələn ötən ildən bəri ən böyük aksiya adlanır. İranyönlü qüvvələrə yaxın olan Livanın Əl-Mayadin telekanalı hazırkı toqquşmaları “ABŞ tərəfindən işğal olunmuş ərazilərin azad edilməsi əməliyyatı” adlandırıb. Suriyanın əsas neft sərvətinin ABŞ və DSS-in təsir zonalarında cəmləşdiyi məlumdur.



Əl-Məyadin ayrıca bəyanat verib ki, Amerika kontingenti qəbilə birləşmələrinin döyüşçülərinə atəş açıb və hətta hərbi təyyarələrdən istifadə edib. Milis üzvləri, eyni məlumatlara görə, hərbi imkanlardakı əhəmiyyətli balanssızlıq səbəbindən mərmilərin intensivliyini müvəqqəti azaltmağa məcbur oldular. Livan telekanalının yerli mənbələri eyni zamanda bildirib ki, qiyam “ABŞ-ın mövcudluğuna xalq müqavimətinin bir formasıdır”. Onlar açıq şəkildə bildirirlər ki, Pentaqon qoşunlarını çıxarana və bütün etnik qruplar Suriyanın şimal-şərqindəki muxtar administrasiya daxilində qərar qəbuletmə mexanizminə bərabər çıxış əldə edənə qədər bu ərazilərdə qarşıdurmalar davam edəcək.

Bu ilin əvvəlində Pentaqonun Baş Müfəttiş Ofisi qeyd edib ki, Suriyadakı Amerika protektoratları zonasında ərəb qəbilələrinin üsyanı bir neçə ay ərzində “tam hüquqlu müqavimət hərəkatına” çevrilə bilər. Tənzimləyicinin hesabatında qeyd olunurdu ki, yerli etnik qruplardan təşkil olunmuş qruplar əslində yüksək səviyyədə özünütəşkilliyə nail olublar. Tədqiqatda “qəbilə döyüşçüləri Suriya rejimi və onun Fərat çayının qərb sahilindəki İran müttəfiqlərindən açıq dəstək alan, müqavimət döyüşçülərinin yenidən təchiz olunduğu, silahlandırıldığı və hücuma keçə bilən tam hüquqlu müqavimət hərəkatına çevrilib”.

SDQ-nin müxtəlif qəbilə qrupları ilə – həm İranın təsiri altında olan, həm də Suriya Ərəb Ordusunun (Dəməşqin nizami qoşunları) kəşfiyyatı ilə, həm müstəqil, həm də paralel birləşmələrə daxil olan toqquşmaları adi xarakter daşıyır. Zaman-zaman bu və ya digər epidemiyalar fürsətçi xarakter daşıya bilər. Məsələn, hücumlar tez-tez İraqda baş verən hadisələrə görə həyata keçirilir, burada da şiə paramiliter qrupların Amerika hərbçilərinin mövqelərinə hücumları və ABŞ-ın cavab hücumları da davam edir. Yaxud, məsələn, Qəzzada baş verən hadisələrə görə. Amma ümumilikdə Suriyanın şərqindəki gərginlik qalıcıdır.

Amerika qüvvələri və danışıqlar aparan şəxslər hansısa yolla təhlükəsizlik insidentlərini dayandırmağa nail olurlar. SDQ-nin döyüş gücü vaxtaşırı üsyan edənlərin potensialı ilə müqayisə edilə bilməz. Belə epizodların əsas səbəbi Amerikanın mövcudluğu və müvafiq olaraq kürd və qəbilə qüvvələrinin itaətsizliyi deyil. Əsas problemlər gəlir bölgüsü, korrupsiya və DSS daxilində bölmələrin özbaşınalığıdır.

Şərqdə gərginliyi saxlamaq üçün yaranmış vəziyyətdən milislərin və ya müəyyən hücrələrin istifadə etməsi tamamilə təbiidir. Ancaq korrupsiya və özbaşınalıq problemi hökumətyönlü qüvvələr üçün də xarakterikdir. Yəni buradakı daxili və gündəlik dinamika Suriya kəşfiyyatının və iranpərəst birləşmələrin şərqdəki, o cümlədən ABŞ-dakı müxaliflərin həyatını çətinləşdirmək istəyi ilə, eləcə də bəzən Suriyadan kənarda baş verən hadisələrlə üst-üstə düşür. Hazırda Suriya ərazisində “müqavimət oxu” çərçivəsində heç bir ciddi fəaliyyət və Qəzza və İranda baş verən hadisələr nəzərə çarpmır. İsrail Müdafiə Qüvvələrinin qoşunlarının Qəzzaya yeridilməsindən sonra qoşun toplamaq cəhdləri edilib. Ancaq Dəməşqin mövqeyi və müxtəlif oyunçuların təzyiqi səbəbindən işə götürmə fəaliyyəti əslində dayandırılıb.

**V.SALAH**

# Ermənistan saxta tarix yazmağı davam etdirir: Azərbaycandan sonra növbə Rusiyaya çatdı

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*





**Belə görünür ki, İrəvanın Qərbin istəkləri fonunda Ermənistan-Rusiya münasibətlərindəki gərginlik Ermənistan tərəfinin tarixi yenidən yazmaq və Rusiyanı işğalçı kimi təqdim etmək cəhdləri səbəbindən daha da pisləşə bilər. Erməni KİV-ləri xəbər verir ki, respublika hökuməti 8-ci sinif üçün "Ermənistanın tarixi" adlı yeni dərsliyi təsdiqləyib və bu dərslikdə 1828-ci ildə "Şərqi Ermənistanın Rusiya imperiyasına birləşməsi" "işğal" kimi qeyd olunub.**

## *Dmitri Solonnikov: İrəvan indi də Rusiyanı işğalçı kimi göstərməyə çalışır və özünə saxta tarix uydurur, belə getsə, Rusiyanı erməni soyqırımında ittiham edəcəklər*




Dərsliyin 6.1-ci fəsli "Rusiyanın Şərqi Ermənistanı işağlı" adlanır. Həmçinin dərslikdə 1826-1828-ci illər Rusiya-İran müharibəsindən sonra imzalanmış Türkmənçay müqaviləsi Rusiya imperiyasının işğalı kimi təqdim olunur.

Bu arada tarixi reallıq ondan ibarətdir ki, heç vaxt "şərqi Ermənistan" mövcud olmayıb və Türkmənçay müqaviləsində də Qarabağ və Naxçıvan xanlıqlarının Rusiyaya birləşdirilməsindən bəhs edilir. Ermənilər Azərbaycan torpaqlarına məhz Kürəkçay, Gülüstan və Türkmənçay sülh müqavilələrindən sonra gətirilib. Görünən odur ki, Ermənistanda belə absurd şəkildə Rusiyadan uzaqlaşaraq Qərbin qanadı altına girmək üçün "tarixi" əsas tapmağa, eləcə də beynəlxalq ictimaiyyətə belə bir mifi sırımağa çalışırlar ki, emənilərin guya Cənubi Qafqazda hansısa öz dövlətləri var imiş.

Rusiya Müasir Dövlət İnkişaf İnstitutunun direktoru Dmitri Solonnikov Ermənistanın son anti-Rusiya hərəkətinin səbəbini "Caliber" analitik mərkəzinə şərh edərkən bildirib ki, Ermənistanın Soros və Qərb fondlarından idarə olunan hazırkı hakimiyyəti ardıcıl olaraq tarixi yenidən yazmaq yolu ilə gedir.

"Obrazlı desək, Ermənistanın simasında yaxşı tələbə külli miqdarda pul müqabilində Qərb müəllimlərinin tapşırıqlarını qüsursuz yerinə yetirir. Biz çox gözəl görürük ki, Soros bütün dünyada tarixi necə yenidən yazır, onun ideologiyası və yeni dünya nizamı naminə şərhi gənc nəslin beyninin yuyulması üçün əsas cərəyana çevrilir. Bu, Şərqi Avropada, Ukraynada, Moldovada, indi də Ermənistanda baş verir. Deməli, İrəvanın vəzifəsi Ermənistanın əsl düşməninin məhz Rusiya olduğunu və onu tarixən işğal etdiyini göstərməkdir. Bu baxımdan mən istisna etməzdim ki, ermənilərin fikrincə, "erməni xalqının soyqırımında" Rusiyanın da günahı olacaq.

Artıq biz görürük ki, Böyük Vətən Müharibəsindən sonra Hitlerin silahdaşları kimi məhkum edilmiş erməni faşist kollaboratorları- o cümlədən Qaryagin Njde-Ermənistanın qəhrəmanlarına çevrilib. Bu, erməni cəmiyyətinin şüuruna saxta tarixi yeritmək üçün hazırlanmış yeni formatdır. Və əslində nə baş verdiyinin əhəmiyyəti yoxdur, de-yure və de-fakto Ermənistan yox idi, amma Qarabağ və İrəvan xanlıqları var idi, bütün bunlar vacib deyil. Sorosun diktəsi ilə tarixi faktların heç bir mənası yoxdur. Əksinə, siz dünya siyasətinin subyektlərini tarixdən silə, yeni qəhrəmanlar, yeni hadisələr uydura bilərsiniz, bu normaldır və bu, şüurun yenidən formatlaşdırılmasından başqa bir şey deyil. Ermənistanda ümumi savadsızlıq və implantasiya edilmiş yeni formullara tab gətirməyə və onları sevinclə qəbul etməyə, özünə xəyanət etməyə hazır olmaqdan fəal şəkildə istifadə olunur. Ermənilərin əsas məqsədi Rusiyanı düşmən edib, Avrasiya İqtisadi İttifaqından çıxandan sonra Moskvadan təzminat tələb etmək, onu Beynəlxalq Məhkəməyə verməkdir.

Hesab edirəm ki, Ermənistanın indiki rəhbərliyi də məhz bu yolla gedəcək, Rusiya buna ciddi hazırlaşmalıdır. Nəzərinizə çatdırım ki, bir sıra ölkələrdə, məsələn, Macarıstanda olduğu kimi, Sorosa əhalinin beynində eksperimentlər aparmağa imkan verməyən liderlərə qarşı vəhşi nifrət yaradılır. Biz görürük ki, Ermənistan rəhbərliyi belə bir eksperimentdən imtina etmir və əhali bu avantüra ilə razılaşır ki, bu da yenə onların seçimidir. İnanıram ki, erməni cəmiyyətinin şüurunun manipulyasiyası davam edəcək və bu da öz növbəsində bu ölkədə istənilən təxribatların və gözlənilməz hərəkətlərin riskini artıracaq",- deyə D.Solonnikov yekunlaşdırıb.








***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
10 avqust
2024-cü il


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!




# "Fast food" haqqında bilməniz lazım olan VACİB MƏQAMLAR

***Maraqlıdır, "fast food" niyə böyük şəhərlərin əhalisi arasında inanılmaz dərəcədə populyardır? Yəqin tez hazırlanır, dadlıdır, doyumculdur və çox bahalı deyil. Bu səbəbdən də istehsalda və satışda burger, sosiska, şaurma və s. kimi tez hazırlanan qidalar var. SİA xəbər verir ki, həkimlərin fikrincə, "fast food" sağlamlıq üçün təhlükəlidi. Görəsən "fast food"un ziyanı nədədir? Bu barədə çox yazılıb. Amma yenə də "fast food"a rəğbət azalmır. Xüsusən də gənclər arasında.***

"Fast food" yüksək kalorili qidadır. Piylənməyə səbəb olur. Məsələn, ənənəvi olaraq kartof qızartması, hamburger, "Coca-Cola" və desertdən ibarət standart naharda 1000 kkaldan çox kalori var ki, bu da bir yemək üçün açıq-aşkar həddindən artıqdır. "Fast food"da olan trans yağlar qaraciyər, ürək-damar, endokrin sistemlə bağlı problemlər yaradır. Həmçinin bədxassəli şişlərin riskini xeyli artırır. İnsanlar üçün trans yağların təhlükəsiz miqdarı gündəlik istifadə də 1%-dən çox olmamalıdır. Amma bir porsiya "fast food" naharının tərkibində belə yağların təxminən 40%-i var.

Qeyd edək ki, Fast foodun tərkibində çoxlu sayda konservantlar, dad artırıcılar və bədənə faydası olmayan boyalar var. Həddindən artıq şəkərin və duzun olması da orqanizmə zərərdir. Həkimlər belə yeməklərin asılılıq yaratdığını deyir.

SİA qeyd edir ki, alimlər uşaqlar və yeniyetmələr arasında araşdırma aparıblar, bu araşdırma zamanı müntəzəm olaraq "fast food" qəbulu ilə psixi problemlərin yaranması arasında əlaqə qurulub. "Fast food" restoranlarına mütəmadi olaraq baş çəkən gənclər daha çox narahatlıq, depressiyaya meyl, əsassız aqressiya, yersiz reaksiyalar və intihara meyl kimi psixi pozğunluqlardan əziyyət çəkirlər. Bu gün tədqiqat davam edir, elm adamları fast foodun uşaqların psixikasına bu təsir mexanizmini anlamağa çalışırlar. Bir sözlə, "fast food"un zərəri çoxdan sübut olunub. Əlbəttə ki, ayda bir dəfə hamburger və kartof yemək olar. Ancaq sağlamlığımızı qorumaq istəyiriksə, sağlam qidaya üstünlük versək daha yaxşı olar.

*Gülnarə Nəriman*

# Paris-2024: Azərbaycanın sərbəst güləşçisi qələbə qazanıb



***Azərbaycanın sərbəst güləşçisi Giorgi Meşvildişvili Fransanın paytaxtı Parisdə təşkil olunan Yay Olimpiya Oyunlarında mübarizəyə start verib. SİA-nın məlumatına görə, 125 kq çəki dərəcəsində yer alan idmançı 1/8 final mərhələsində misirli Diaeldin Abdelmottaleblə üz-üzə gəlib.***

Rəqibinə qalib gələn Meşvildişvili (4:0) 1/4 finala vəsiqə qazanıb. O, növbəti raundda Lxaqvaqerel Munxtur (Monqolustan) ilə görüşəcək. Qeyd edək ki, Paris-2024 avqustun 11-də başa çatacaq.

# Məhbus ailələrindən pul tələb edən şəxs saxlanıldı



***Polis və penitensiar xidmət əməkdaşlarının birgə keçirdiyi tədbirlərlə məhbus ailələrinə zəng vuraraq pul tələb edən şəxs müəyyən olunub. Bu barədə SİA-ya DİN-in Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, 1991-ci il təvəllüdlü N.Əhmədov polis tərəfindən saxlanılıb. Araşdırmalarla onun digər bir neçə məhbus ailəsinə zəng edərək qanunsuz pul vəsaitləri tələb edərək bank hesablarına köçürdüyü məlum olub. Araşdırma gedir.***

Qeyd edək ki, bu barədə sosial şəbəkələrdə məlumatlar yayılmışdı. Belə ki, N.Əhmədovun məhbuslardan birinin həyat yoldaşını aldadaraq 5 min manat aldığı bildirilirdi.

*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700